# BAYRAMINIZ MÜBARƏK!

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

Gündəlik hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 172 (5832) 31 dekabr 2020-ci il

Qiyməti 30 qəpik

## Prezident dünya azərbaycanlılarını təbrik etdi



Bax:səh-2

## Milli Məclis dünya azərbaycanlılarına müraciət edib



**Milli Məclis Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Milli Məclis müraciət edib.**

Adalet.az-ın məlumatına görə, müraciətdə qeyd edib ki, bu il həmrəylik günü son dərəcə qürurla qeyd edilir. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək torpaqlarımızın işğalına son qoyub, ərazi bütövlüyünü təmin edib, xalqımız qalib xalqa çevirib, Ulu öndər Heydər Əliyevin vəsiyyəti yerinə yetirilir. Azərbaycan siyasi, iqtisadi, hərbi gününü durmadan artıran bir dövlətdir. Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti dövlətimizə çox böyük uğurlar gətirir, Azərbaycan dünyada çox böyük nüfuz və etibar qazanıb.

**Müraciət səsverməyə qoyularaq qəbul edilib.**

## MƏN KƏBİNİMİ XOCALIDAKI MƏSCİDDƏ KƏSDİRMƏK İSTƏYİRƏM...

**Ermənilər Kəlbəcərdəki Dədəvəng kilsəsində kəbin kəsdiriblər, keşiş də onlara xeyir-dua verib.**

İndi mənə lazımdı ki, iki nəfər və ya çox nəfər xocalılı öz kəbinlərini doğma şəhərlərindəki məsciddə kəsdirmək istəsin.

Görək sülhməramlıların komandiri Rüstəm Muradov buna razılıq verəcək, ya yox?

Verməsə, hesabımızı biləк.

## TERRORÇU İLƏ DANIŞIQLARA GEDİLMİR VƏ ƏSİR GÖTÜRÜLMÜR



**Dünya təcrübəsində belə bir hal yoxdur ki, hansısa dövlət terrorçu ilə danışığa getsin. Heç uzağa getməyək, deyəsən 2003-cü iliydi. Moskvada bir konsert salonunu terrorçular ələ keçirmişdi. Amma Rusiya onlarla danışığa getmədi, hamısını qırdı və arada özünün konsertdə olan 60-dan çox vətəndaşının da ölümünə səbəb oldu.**

İndi biz bəzən Qarabağda meşələrdə gizlənmiş terrorçuları zərərsizləşdiririk və bəzilərini əsir götürürük.

Qardaşım, terrorçunu əsir götürməzlər, anasını ağlar qoyarlar.Şanlı və zəfərli əsgərlərimiz, bu məsələdə komandirlərinizə qulaq asmayın, öz bildiyinizi edin. Və buna görə heç bir cinayət daşımırsız.

## ERMƏNİLƏR AĞDAMIN ƏRAZİSİNDƏN KEÇƏRƏK

*bizim qoşunların nəzarəti altında olan bölgə ilə Xoramurd kəndinə gedib-gəlirlər.*

*Bu yol bağlanmalıdır. Ya da biz də Əsgərandan keçərək qısa yolla (37 km.) Şuşaya getməliyik. Əks təqdirdə, biz də Xoramurd yolunu bağlamalıyıq.*

## DARIXANLARIN MENYÜSÜNƏ

*Baxıram, dünənəcən bir rayonumuzun azad olunmasını arzulayanlar indi Qarabağda doqquz şəhər və rayonların azad olunmasına ağız büzürlər ki, bəs niyə Xankəndi, Xocavənd (Martuni), Ağdərə, Əsgəran üzərində hələ ki bayraqlarımız dalğalanmır? Və buna görə dilxor olurlar, hökumətimizi qınayırlar. Belə bir ifadə var, qoy filan yerimə yer eləyim, sonra göstərərəm. İndi biz Qarabağdakı 13 rayonumuzdan (Ağdərə ləğv olunub, Xocalı rayonu yaradılıb) 9-nu azad etmişik, yerdə qalanını da tezliklə azad edəcəyik.*

*Ona görə səbrsiz olmayın. Elçibəy nə deyirdi, hər şeyin bir zamana ehtiyacı var. İndi həmin rayonların da işğalçılardan azad olunmasına bir zaman gərəkdi. İnşallah, bir-iki ilə bunu da görəcəksiniz.*

Aqil ABBAS
aqilabbas@rambler.ru

## HƏSƏN ZEYNALOV, SƏNİ DƏ AĞDAMDAKI TOYUMA DƏVƏT EDİRƏM...



**Bir Həsən Zeynalov var. Vaxtilə Qarsda Azərbaycanın Baş konsulu işləyib, sonra İstanbulda Azərbaycanın Baş konsulu işləyib. Hazırda Türkmənistan və Əfqanıstanda Azərbaycanın fövqəladə və səlahiyyətli səfiridi.**

**Nümayəndəlikdə işləyəndə Məmməd Arazla bağlı bir tədbirdə tanış oldum Həsən Zeynalovla. Tale elə gətirdi ki, oğlum onun oğluyla bir yerdə ən çətin, ən ağır Türkiyə Polis Akademiyasında birlikdə bu çətinliyə, bu ağırlığa dözdü. Bu gün ikisi də Daxili İşlər Nazirliyində, xüsusi xidmət orqanlarında müəyyən vəzifələr tuturlar. Və öz vəzifələrini də layiqincə yerinə yetirirlər.**

Bax: səh.2

## Ana Vətənimizin sönməz ulduzları

Bax: səh.10

## Prezident dünya azərbaycanlılarını təbrik etdi



**Prezident İlham Əliyev dünya azərbaycanlılarını təbrik edib.**

Təbrikdə deyilir:

"Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir. Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər Paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram. Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram".

*Aqil ABBAS*

# HƏSƏN ZEYNALOV, SƏNİ DƏ AĞDAMDAKI TOYUMA DƏVƏT EDİRƏM...

Bir Həsən Zeynalov var. Vaxtilə Qarsda Azərbaycanın Baş konsulu işləyib, sonra İstanbulda Azərbaycanın Baş konsulu işləyib. Hazırda Türkmənistan və Əfqanıstanda Azərbaycanın fövqəladə və səlahiyyətli səfiridi.

Nümayəndəlikdə işləyəndə Məmməd Arazla bağlı bir tədbirdə tanış oldum Həsən Zeynalovla. Tale elə gətirdi ki, oğlum onun oğluyla bir yerdə ən çətin, ən ağır Türkiyə Polis Akademiyasında birlikdə bu çətinliyə, bu ağırlığa dözdü. Bu gün ikisi də Daxili İşlər Nazirliyində, xüsusi xidmət orqanlarında müəyyən vəzifələr tuturlar. Və öz vəzifələrini də layiqincə yerinə yetirirlər.

Başlayaq Həsən Zeynalovun Qarsdakı Baş konsul vəzifəsindən. Həmin vaxt Azərbaycan jurnalistləri, mən də içlərində olmaqla bir neçə məsələnin şahidi olmuşuq.

Bu adam Qarsda Baş konsul olarkən Kərbəlayı İsmayılın Iqdırda abidəsini götürtmüşdü.

Bilməyənlər üçün deyim. Türkiyənin müəyyən qanunları var, heç kim o qanundan çıxa bilməz. Yəni Kərbəlayı İsmayılın qəbri üzərində abidə ucaldırsansa, Türkiyə qanunlarına görə bu yasaqdır. Amma o yasağı qaldıra bildi. Təbii ki, Azərbaycanın dövlət başçısı da bu məsələdə Həsən Zeynalova yardımçı oldu. Və Həsən Zeynalov təkcə Iqdırda Kərbəlayı İsmayılın büstünü qaldırmadı, eyni zamanda həmin qəbiristanlıqda yatanların bütün məzarlarına diqqət göstərdi.

Həsən Zeynalov Qarsda Baş konsul işləyərkən orda bir erməni və türk dostluğuyla bağlı hündürlüyü təxminən 60 metr olan bir abidə ucaldılmışdı.

Həmin vaxt Azərbaycanın aparıcı mediaları Həsən Zeynalovun çağırışı ilə bağlı dövlət hesabına Qarsa getdi. Mən də o tədbirlərdə iştirak edirdim. Və məhz Həsən Zeynalovun apardığı mübarizə nəticəsində həmin abidənin tamamlanması dayandırıldı. Bu çox asan məsələ deyildi. Həmin vaxt az qalmışdı ki, Türkiyə ilə Ermənistanın sərhədi açılsın.

Türkiyə ilə Ermənistanın sərhədinin açılışı da dayandırıldı, həmin abidənin başa çatdırılması da dayandırıldı. Demək olar ki, məsələ bitmişdi.

Daha sonra sayın Rəcəb Tayyib Ərdoğan Həsən Zeynalovun Türkiyənin Kültür nazirliyinə yazdıqları məktublarını və s. nəzərə alaraq həmin abidənin "ücübə" olduğunu söylədi və həmin abidə söküldü.

Yeri gəlmişkən, Iqdırda ermənilərin yaratdıqları qətliamlarla bağlı azərbaycanlı professor, memar Cəfər Qiyasinin hazırladığı bir abidə var. Abidə beş qılıncla yaradılmış bir türk çadırıdır, özü də Boz qurd qılınclarıyla. Deməli, gün çıxanda İrəvandan həmin abidə görünür.

Yeri gəlmişkən, Cəfər Qiyasi bu abidəyə görə alacağı təxminən 300-400 min dollar qonorardan imtina edib.

Ən maraqlısı nədir? Deməli, Həsən Zeynalov Qarsda Azərbaycanın Baş konsuludur, biz bir neçə dəfə onun qonağı olduq. Bilirsiniz nəyə şahidlik etdik? Qarsda Azərbaycan türkləri üstünlük təşkil edir. Onlar hər hansı bir problem olanda Qarsın valisinə və ya bələdiyyə başqanına deyil, dərdlərini, problemlərini Həsən Zeynalova söyləyirdilər.

Şahidi olmuşam, birinin evi damır, biri uşağının təhsil haqqını ödəyə bilmir, birinin toyu var və sair və ilaxır onlar Həsən Zeynalovun yanına gəlirlər. Elə bil ki, Həsən Zeynalov Qarsın icra başçısıdı və hamısına kömək edirdi.

Qarsda Heydər Əliyev parkı yaratmışdı və Heydər Əliyevin büstünü qoydurmuşdu. Və hər gün büstün üzərinə təkcə Həsən Zeynalov yox, Baş konsulluğumuz yox, həm də qarslılar gül qoyurdular, əklil qoyurdular. Adama ləzzət edirdi.



Sonra Həsən Zeynalovu İstanbul Baş konsulluğuna göndərdilər.

Ona qədər İstanbul Baş konsulluğu İstiqlal caddəsində yerləşirdi (Allah Abbas Abdullaya rəhmət eləsin, çalışırdı ki, 1918-ci ildəki səfirliyi bərpa eləsin).

Deməli, İstanbulun bahalı yerləri var, özü də çox bahalı. Və Möhtərəm Prezident İlham Əliyevin tapşırığı ilə ən bahalı yerdə Azərbaycan Baş konsulluğu üçün torpaq alındı. Və Həsən Zeynalov ən qısa zamanda həmin ərazidə Baş konsulluq üçün bina tikdi.

Mən İstanbula getmişdim. Həsən müəllim məni tikilməkdə olan Baş konsulluğa apardı, möhtəşəm bir bina tikirdi, Azərbaycanın adına layiq. Və sonra da həmin binada Baş konsulluq işə başlayanda da oldum. Doğrudan Azərbaycanın adına layiq idi.

Deyə bilərsiniz ki, Möhtərəm Prezident deyib, o da tikdirib, burda nə var ki?

Var! Ağcabədidə Cənab İlham Əliyev gedən abadlıq işləriylə tanış olanda çox razı qaldı. Və mən dedim ki, Möhtərəm Prezident, bunlar hamısı Sizin diqqət ayırdığınıza görədi.

Dedi ki, mən heç bir rayona fərq qoymuram, amma hamısı Şahin Məmmədov kimi yerinə yetirmir axı.

İndi Həsən Zeynalov da Möhtərəm Prezidentin tapşırığını ləyaqətlə yerinə yetirmişdi.

İstanbuldakı fəaliyyəti çox ağır idi. Bilmirdi ki, Azərbaycan dövlətinin onun qarşısına qoyduğu vəzifələrini yerinə yetirsin, yoxsa Fətullah Gülənin Türkiyədə və Azərbaycanda yaratdığı şəbəkə ilə mübarizə aparsın. Bu, çox ağır bir məsələ idi.

Və bu, hətta onun Baş konsulluq vəzifəsini itirməyi ilə başa gələ bilərdi. Amma o, vəzifəsini, bizim dillə desək, vecinə almadı, bütün gücüylə FƏTÖ-nün həm Türkiyədə, həm də Azərbaycanda fəaliyyətini ifşa etməklə məşğul oldu. Düzdür, bunlar ona çox ağır başa gəlirdi, amma bir addım da geri çəkilmirdi.

Həmin vaxt həm Ramiz Mehdiyevin, həm də XİN rəhbərlərinin Həsən Zeynalovu yerində oturtmaq üçün Baş konsulluqda ən azı ayda bir dəfə keçirtdiyi yoxlamalardan da xəbərim var. Biri-iki dəfə də mən bu yoxlamaların şahidi olmuşam. Həsən Zeynalov gülürdü, axtarın, bir şey tapsanız mənə də deyin. Təbii ki, heç bir şey tapa bilmirdilər.

Bir dəfə "KQB"-dən iki nümayəndə yoxlamaya gəlmişdi, mən də ordaydım. Həsən müəllim güldü, dedi siz Allah, möhkəm yoxlayın. Yoxladılar, yenə heç nə tapmadılar.

Ola bilərdi beş sabun artıq işlənmişdi, ya iki dənə şampun, ya da...

Amma Azərbaycan Prezidenti cənab İlham Əliyev heç kimin apardığı araşdırmalara baxmayaraq, Həsən Zeynalovu yaxşı tanıyırdı. XİN-in apardığı yoxlamalar heç bir nəticə vermədi və Möhtərəm Prezident İlham Əliyev Həsən Zeynalovun fəaliyyəti haqqında dəqiq məlumatlara malik olduğu üçün onu Türkmənistanın və Əfqanıstanın fövqəladə və səlahiyyətli səfiri təyin elədi. Yəni onun vəzifəsini daha da böyütdü. Və bu gün də Həsən Zeynalov həmin vəzifəni qeyrətlə yerinə yetirir.

Son olaraq Həsən Zeynalovun 2015-ci ildə Türkiyənin "Yeni çağ" qəzetinə verdiyi bir müsahibə ilə bitirmək istəyirəm.

"- Biz torpaqlarımızı bir günə erməni işğalından qurtara bilərik. Azərbaycan bir dövlətə yaraşanı edir. Beynəlxalq hüquq və normalara uyğun olaraq ələqələr qurur, həqiqəti anlatmağa çalışır. Biz qan tökmək istəmirik, yoxsa Qarabağı bir gündə ala bilərik. İrəvana da gedə bilərik. İqtisadi gücümüz də, hüquq da buna imkan verir. ATƏT-in Minsk qrupu davamlı olaraq "müharibə olmasın" deyir. Ermənistan hər dəfə növbəti provakasiyaya əl atır. Səbrimiz qalmayıb. Dövlətimizin də, xalqımızın da... Çox gözlədik.

İşğal bitsin, o torpaqlara gedim, ayağım dəysin, yetər. İnsan özünü günahkar hesab edir. Mənim torpağım işğal altındadırsa, dik gəzə bilmərəm. Bu ləkəni siləcəyik. Bunun başqa yolu yoxdur. Bir qarış torpağımız da Ermənistana qalmayacaq".

Həsən Zeynalovun beş il bundanı əvvəl Türkiyənin "Yeni çağ" qəzetinə verdiyi müsahibə həyata keçdi. Ali Baş Komandan və qəhrəman Milli Ordumuz torpaqları işğaldan azad etdi.

Həsən müəllim, indi işğaldan azad olunmuş torpaqlarda dik gəzə bilərsən, arzun həyata keçdi.

Həsən Zeynalov! Yanvarın 1-i sənin 70 yaşın tamam olur. "Sən" dediyimə görə bağışla, çünki biz qardaşıq, qardaş qardaşa "siz" deməz, "sən" deyər. Sənin 70 yaşın ən xoşbəxt ilin oldu!

Həsən müəllim, bir gün sənin haqqında gözəl bir əsər yazacam.

Nə isə...

Həsən müəllim, səni, səninlə birlikdə yanvarın 1-də doğulan bütün azərbaycanlıları təbrik edirəm.

Və bir də Həsən müəllim, 2021-ci ilin mayın 16-da Ağdamda özümə yenidən bir toy edəcəm və həmin toya səni bütün balalarınla, nəvələrinlə dəvət edirəm. Özü də Həzrət Abbas haqqı, pul yazdırmaq olmayacaq.

Sən də bizi Naxçıvanda keçirəcəyin xoş günlərə dəvət edərsən, biz də gələrik.

# Böyük hərflərlə ADAM...



*Xəyalə Zərrabqızı*
*filologiya üzrə*
*fəlsəfə doktoru*

**İnsanların həyatına, ömür yoluna nəzər salanda bəzən adama elə gəlir ki, sanki hamı eyni bir ömrü yaşayır. Sanki adamlar bir-birinin yaşamını təkrarlayır. Amma elə insanlar var ki, onların ömrü nəsillərin həyatında bənzərsiz bir təcrübə olur. Hikmət müəllim məhz o insanlardandır…**

Bu gün ölkəmizin həyatındakı ən həlledici məqamlarda bu qədər gənc yaşında Azərbaycanın Haqq səsinə çevrilən və bir ordunun görə biləcəyi işi ideoloji cəbhədə mətinliklə üstlənən və o şərəfli missiyanın öhdəsindən layiqincə gələn, cəmiyyətin sosial-mənəvi, siyasi-ictimai həyatında əvəzsiz xidmətləri olan Hikmət Hacıyevin yaşadıqlarını kitab kimi vərəqlədikcə bu şərəfli ömür yolunun biz gənclər üçün və bütövlükdə cəmiyyətimiz üçün dəyərli nümunə olduğunun şahidi oluruq - vicdan, ləyaqət, dürüstlük, saflıq, sadəlik, səmimilik, təvazökarlıq, ziyalılıq, müdriklik və ən əsası İNSANLIQ nümunəsi…

### *Bu dünyaya gələn hər bir insan*

***qismətinə düşən ömür payını yaşayır, yaradır, yaşlanır. Amma yaşa dolduqca kamilləşmək, müdrikləşmək hər kəsə nəsib olmur...***

Kamillik, müdriklik özü bir Tanrı vergisidir ki, Tanrı onu sevdiyi, seçdiyi bəndələrinə ərməğan edər, öz ilahi nurundan ona pay verər.

Hikmət müəllim məhz belə insanlardandır. Üzünün nuru sözlərinə tökülən, bütün yaxşılıqlara körpü salan, xalqının - millətinin, məmləkətinin Haqq səsi olan, şərəfli ömrünü fədakarlıqla vətəninin rifahına həsr edən vətəndaş ziyalı…

"TRT Belgesel"də hər bazar ertəsi "Su savaşları" verilişinə baxıram, Hakan Girginer və Çağlar Taner adlı iki türk mütəxəssis su izinə rastlamaq üçün Afrikanın boz səhralarını qarış-qarış dolanır, böyük səbir, ağır zəhmət və fədakarlıq hesabına həmin ərazilərə su kəmərləri çəkməklə suya həsrət insanlara bayramdan da ötə bir səadət yaşadırlar. Su yerdən fontan vuranda körpələr sevinclə atlanıb - düşür, əl - ələ verib Hakan və Çağlar bəyləri dövrəyə alır, əllərini suya vurub dodaqlarına sürür, şükür edə - edə şənlənirlər. Verilişin sonuna sakit baxmaq mümkün deyil - insanların üzündəki o sevinci izləyəndə göz yaşlarım dinmək bilmir... Və hətta bəzən sevincdən hönkürürəm də...

### *Qəribədir...*

heç özüm də bilmədən nədənsə hər dəfə "Su savaşları"nın son kadrlarını izləyəndə Hikmət Bəy gəlib gözlərimin önündə dayanır. Beynimdə həmişə belə assosasiya yaranır ki, o suyu tapdığına dünyanın ən xoşbəxti olan körpələr kimi Hikmət bəy mənim bu dünyadakı ən böyük tapıntımdı...

***Dərindən düşünəndə əslində bizim içində bulunduğumuz mühitin Afrikanın cadar bağlamış bozqırlarından elə də fərqi yoxdu, gözünə sel kimi görünən insan dənizinin içində ruhun elə tənhalaşır ki, bu səhrada Hikmət bəy kimi insanı tapmaq körpələrin dodaqlarına su sürməyi kimi izaholunmaz duyğu, əvəzsiz səadət olur.***

Yola saldığımız 2020-ci ilin müharibə ilə, terrorla, pandemiya ilə bizi sınağa çəkən çətin günlərini səmimi etiraf edim ki, mən Hikmət müəllimin insanların ruhuna məlhəm olan, hüzur dolu səsi, sakitləşdirici intonasiyası, təskinliyi, təmkini - sözün həqiqi mənasında Hikmət müəllimin varlığı ilə unuda bildim. Bir ata övladını qorumaq üçün bütün gücünü necə səfərbər edirsə, Hikmət müəllim sanki yaşadığımız ən çətin dönəmlərdə o şəkildə mənəvi dayağımız oldu - Atam kimi doğma, Atam kimi səmimi, Atam kimi sevdiyim Adam... Ruhumuza, mənəvi ağrılarımıza varlığı ilə məlhəm olan Adam... Böyük hərflərlə ADAM...

Dünyada yollar çoxdur. Bu yolların ən çətini, həm də ən şərəflisi, ən müqəddəsi insanların qəlbinə gedən yoldur. Hikmət bəy öz işığı - ziyası, dərin düşüncəsi, səmimiyyəti ilə ürəklərə gedən o yolu çoxdan fəth edib və peşəsinə sədaqəti, insanlığı, dürüstlüyü, sevgisi, vicdanı, fədakarlığı, böyük ürəyi ilə mənim dünyamda Min İlin Doğmasına çevrilib...

Görkəmli yazıçımız Seyran Səxavətin ustad sənətkarımız Rəmişə həsr olunmuş "Rəmiş" adlı maraqlı bir hekayəsi var: "Rəmiş bir ilahi möcüzədir. O, gitaraya - yadelli bir ispana Azərbaycan dilini öyrədən ilk müəllimdir. Rəmiş "Segah" çalır. Məni bağışlayın, onun necə çaldığını, nə cür istedad sahibi olduğunu yazmağa mənim kişiliyim çatmaz. Amma onun həyatı, sənəti ilə bağlı bəzi məqamlar var ki, onları yazmağa təpərim var" - deyir.

***Nədənsə, Hikmət müəllim haqqında yazmaq istəyəndə bu sözlər gəldi ağlıma. Hikmət müəllimin özünə, sözünə, işıqlı əməllərinə layiq bir şəkildə danışmağa, yazmağa Seyran Səxavət demişkən, "kişiliyim çatmasa da", peşə vicdanı, mərd xarakteri, nurlu üzünə sirayət edən tərtəmiz daxili aləmi, örnək həyatı, insanlığı, zəngin mənəvi dünyası haqda yazmağa özümdə azca da olsa, təpər tapıram və dövlətimiz, dövlətçiliyimiz və cəmiyyətimiz üçün yorulmadan çalışan, istənilən məqamda, situasiyada təəssübkeşliklə, böyük ürəklə, fədakarlıqla əlindən gələni əsirgəməyən bu Nur simalı, İşıq İnsanın ünvanına kiçicik bir təşəkkür kimi bunu yazmağın vacib olduğunu düşünürəm...***

### *Bu həyatda*

istər yaxşı həkim olsun, istər yaxşı müəllim, hər bir peşə sahibinin mayəsində insanın şəxsiyyəti dayanır. Şəxsiyyətində, xarakterində yarımçıqlıq olan adam heç vaxt böyük iş ortaya qoya bilməz. Bu mənada, Hikmət müəllim şəxsiyyəti ilə sözü, əməli bir-birini tamamlayan bütöv bir insandır.

***Allah həmişə dağına baxır, qar verir, ağacına baxır, bar verir... Hikmət bəy Allahın ona verdiyi ömür payını - zamanını, bir saniyəsini belə boşuna xərcləmədən dəyərləndirir və insanların və insanlığın xidmətində son dərəcə vicdanla, ləyaqətlə dayanır.***

Mən Hikmət bəyi dünyaya gətirən o Müdrik Anamızın qarşısında baş əyirəm, onu bu cür mükəmməl yetişdirən Fərhad Atamızın əllərindən öpürəm.

Yaxşı ki varsınız, Hikmət müəllim! Nə yaxşı ki Varsan! - deyə bildiyimiz adamlar bizə Allahın ən böyük ərməğanıdı...

***Vicdanlı vətəndaş və vətəndaş ziyalı olmağı bacarmaq bütün varlığıyla, ruhuyla özünü xalqı yolunda fəda edə bilməkdi ki bunu da hamı bacarmır... Milyonların sevimlisi, sidq ürəklə sevdiyi və inandığı, ürəklərdə güvən qazanan İnsan olmaq statusunu da Tanrı hər adama nəsib etmir. Ürəyimizdə ən böyük ucalıqdasınız, Hikmət müəllim!***

### *Həzrəti Peyğəmbərimizdən soruşurlar ki,*

Dini bir sözlə necə ifadə etmək olar? Deyir ki: "təsəlli" sözü ilə. Bu çətin dünyamızda, mənəviyyatın aşındığı, əxlaqi dəyərlərin alt - üst olduğu, insanlığın çat verdiyi bir zamanın içində Sizin kimi insanı tanımaq, varlığını hiss etmək, sözün həqiqi mənasında insana təsəlli olur. Şərəfini, ləyaqətini, heysiyyətini, peşə vicdanını beş paraya dəyişənlərin meydan suladığı bir dünyanın tən ortasında Sizin kimi öz təmiz dünyasını, özünün, sözünün, ruhunun, adının paklığını - Tanrı əmanəti kimi qoruyan, düşüncələri, əməlləri ilə cəmiyyətimizə işıq salan bir İnsanın (sözün həqiqi mənasında - böyük hərflərlə İnsanın...) varlığını bilmək adama təsəlli olur. Yüz acını da udursan bir şirinin xətrinə.

Düşünürsən ki, bu xalq Hikmət Hacıyev ləyaqətdə qutsal və uca İnsan yetirə bilibsə, demək ki, hələ sabaha və yaşamağa ümid qalır...

**Həqiqətləri deyən diliniz, yaxşılıqlara ünvan olan ürəyiniz, işıqlı əməllər üçün yorulmadan çalışan əlləriniz var olsun, Hikmət müəllim! Ünvanınıza söylənən bütün xoş sözlər halal haqqınızdır. Ulu Tanrı Sizin işığınızı ailənizə, yavrularınıza, bizlərə - bütün Sizi sevənlərə doyunca versin! Sizə möhkəm cansağlığı, yorulmaz fəaliyyətinizdə uğurlar diləyi, sonsuz sayğı və sevgilərimlə...**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz Ağacan Cəbrayılov***




**20.05.2002-ci il tarixdə Şamaxı rayonunda anadan olan Cəbrayılov Ağacan Zakir oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 23.11.2020-ci il tarixdə Beyləqan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"Vətən uğrunda" və Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Ruslan Yunisli. 10.10.1986-cı il tarixdə Beyləqan rayonu, Təzəkənd kəndində anadan olan Yunisli Ruslan Elçin oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 28.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Zahir Vəlişov***




**17.02.1983-cü il tarixdə Beyləqan rayonu, Kəbirli kəndində anadan olan Vəlişov Zahir Arif oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 29.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin Xatirə (13 yaş) adlı qızı və Arif (12 yaş) adlı oğlu Vətənə əmanət qalıb**

***Unutmayaq, unutdurmayaq!***



**"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Aqil Əliyev.**

**10.01.1999-cu il tarixdə Tovuz rayonu, Pələkli kəndində anadan olan Əliyev Aqil Faiq oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 16.10.2020-ci il tarixdə Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Şəhid MAXE Qərib Balacayev***



**"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Qərib Balacayev.**

**25.12.1997-ci il tarixdə Beylqan rayonu, Təzəkənd kəndində anadan olan Balacayev Qərib Nəsib oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 28.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

# Politoloq və siyasi ekspertlərin rəyi: "Qarabağda baş verən təxribat..."

***Ötən gün erməni silahlılar Tuğ kəndində Ordumuza qarşı təxribat törədib və bir əsgərimiz şəhid olub. Bunun ardınca antiterror əməliyyatına başlayan Ordumuz 6 erməni silahlısını məhv edib. Hazırda Qarabağda baş verən hadisələrlə bağlı ictimaiyyətimizi narahat edən bir sıra faktlar varki bunlar haqda politoloqlarımız müəyyən fikirlər irəli sürürlər. Həmin fikirləri oxucularımıza çatdırırıq:***

**Politoloq Elçin Mirzəbəyli:**

Antiterror əməliyyatları Xankəndi şəhərində aparılmalıdır. Bu gün regionda terrorun başı oradadır və terrora son qoymaq üçün öncə o "başı kəsmək" lazımdır. Əgər Ermənistan və Rusiya öhdəliklərini yerinə yetirə bilmirlərsə, o zaman Laçın dəhlizi də qapadılmalı, sülhməramlılar isə yalnız Ermənistan-Azərbaycan sərhədində müşahidə aparmalıdırlar.



**Hərbi ekspert Oleq Kuznetsov:**

- Azərbaycanın Qarabağ bölgəsindəki rus sülhməramlıları ya zəif təlim görüblər, ya da Xankəndidə arxalarında gizlənən erməni terrorçularına açıq şəkildə mane olmayaraq, onların Azərbaycan ordu birləşmələrinə hücumlar təşkil etmələrinə icazə verirlər. Əslində, onlar bununla erməni ekstremistlərinin Azərbaycan ərazilərində həyata keçirdikləri partizan-təxribat müharibəsinə ortaq olurlar. İsrailin terrorçularla mübarizə təcrübəsini yada salaraq, rus sülhməramlılarının post xətti arxasında olsa belə, yaraqlıların məskunlaşdığı yerlərə qabaqlayıcı raket-artilleriya zərbələri endirilməlidir. Azərbaycan öz ərazisində öz təhlükəsizliyini təmin etmək üçün suveren hüquqa malikdir, sülhməramlılar bu məsələdə ona mane olmağa deyil, kömək etməyə çağırılıblar. Əminəm ki, belə bir nümunəvi qətliam əməliyyatı hələ də Xankəndidə oturan erməni separatçılarının və Rusiya sülhməramlılarının ağlını başına toplayacaq, çünki Kreml ona reaksiya verməyə məcbur olacaq. Nəticədə, Rusiyanın ali siyasi rəhbərliyinə terrorçuların və sülhməramlıların, sülhməramlı kontingent komandanlığının və Xankəndidəki erməni separatçılarının liderlərinin təmasları barədə məlumatlar ən bariz şəkildə çatdırılacaq. Üstəlik, İlham Əliyev Qubadlıdakı hərbçilər qarşısında çıxış edərkən erməni yaraqlılarının istənilən təxribatına ən sərt cavabdan danışıb, onun səviyyəsində və miqyasında olan siyasətçilər isə sözlərini küləyə atmır, əks halda ölkənin imicinə və şəxsən Prezidentin özünə mənəvi ziyan vura bilər.

**Politoloq Maksim Şevçenko:**

- Rusiyanın RBK telekanalı - yeri gəlmişkən, bu kanal Rusiya Prezident Administrasiyasına bağlıdır - açıq-aşkar Araiki (keçmiş və qondarma "dqr"in separatçı-terrorçu rəhbəri) "dqr"ın prezidenti adlandırır. Dövlət tərəfindən (Rusiya dövləti nəzərdə tutulur - red.) açıq şəkildə dəstəklənənlər də daxil olmaqla, Rusiyanın bir çox media qurumu Dağlıq Qarabağı "artsax" kimi qələmə verir. Bu, 10 noyabr Bəyannaməsinə açıq-aşkar xəyanətdir. Putin Dağlıq Qarabağı açıq şəkildə Azərbaycan ərazisi saydığını bildirir, amma dövlət mediası fərqli təbliğat aparır. Baxın, erməni politoloq İsgəndəryan mart-aprel aylarında 3-cü Qarabağ savaşının olacağını bildirib. Onlar rus qalxanının arxasında gizlənərək, ordunu modernləşdirərək, yeni qan tökülməsinə hazırlaşırlar? Bu ehtimal istisna deyil. Bəs bu, Rusiyanın nəyinə lazımdır? Bu, bizə, ruslara qətiyyən lazım deyil. Bizə azərbaycanlılarla qarşılıqlı əməkdaşlıq və sülh lazımdır. Orda olan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da çıxıb getməlidirlər başqa ölkəyə...

**Siyasi ekspert Zaur İbrahimli:**

- Azərbaycan tərəfi bu insidentləri tam araşdırmalıdır. Əgər doğurdan da bu diversantlar noyabrın 10-dan sonra bölgəyə gəliblərsə, müvafiq addımlar atılmalıdır. Bu diversantların təchizatı necə həyata keçirilir, onlar haradan komanda alırlar, ruslarla hər hansı bir bağlantı varmı? Bu suallarla bağlı Azərbaycan ictimaiyyətinə də məxfiçilik məsələləri nəzərə alınmaqla məlumat verilməlidir. Ən azı ümumi şəkildə icmal verilməlidir.

Aydındır ki, Qarabağda hazırda əsəb müharibəsi gedir, Rusiya sülhməramlıların 23 müşahidə məntəqəsi və Laçın dəhlizinə nəzarətlə kifayətlənmək istəmirlər. Əminliklə demək olar ki, ruslar bütün bölgəyə nəzarət imkanı verən, xüsusən Şuşa istiqamətində daha əlverişli mövqelərdə mənzillənməyə çalışırlar.

Bu məqsədlə müxtəlif təxribatlar ola bilər. Yəni bu ehtimal olunandır.

Amma tələsik nəticə çıxarmaq da lazım deyil, Tovuzdakı iyul hadisələrini yada salsaq məlum olur ki, bəzən təsadüflər çox rol oynayır. Ancaq istənilən halda Rusiyanın ermənilərin tərksilah olmasına cavabdehliyi məsələsi qaldırılmalıdır. 10 noyabr Bəyantina sadiqliyi məsələsi də qaldırılmalıdır. Amma təmkinlə, daha pafos və panika ilə yox...

**Hərbi ekspert Ədalət Verdiyev:**

- Bu birinci hadisə deyil, bundan da əvvəl ermənilər Hadrut istiqamətində təxribata yol vermişdilər. Ermənilər Hadruta nəzarətin Azərbaycana keçməsini daha ağrılı-acılı qəbul edirlər. Onlar bu ərazilərə çox qısqanclıqla yanaşırlar.

Düşünürəm ki, Ermənistan tərəfi bu təxribatları istəmir, bu məsələnin altında yatan başqa şeylər var. Böyük ehtimalla bu təxribatlar Qarabağdakı separatçı rejimin reallaşdırdığı hücumlardır. Təxribatların təhlükəli olan başqa cəhəti də ondan ibarətdir ki, Rusiya öz qüvvələrinin təhlükəsizliyi təmin etmək üçün yetərli sayda olmamasını önə çəkib, regiona əlavə qüvvələr gətirilməsi məsələsini qaldıra bilər. Baş verən hadisələrin də birbaşa məsuliyyəti Rusiya sülhməramlılarının üzərinə düşür. Onların fəaliyyətinə bəlli bir korrektələr edilməlidir. Düşünürəm ki, bu korrektələrin olunması üçün yaxın günlərdə Türkiyənin Azərbaycana gələcək monitorinq qrupunun üzvlərinin fəaliyyəti müsbət təsir göstərəcək. Daha əvvəlki əməliyyatda da cinayət işi açılan ermənilər var, dünənki əməliyyatda da 6-sı məhv edilib, 6 nəfər əsir götürülüb. Cinayət işi açılan ermənilər Azərbaycana təhvil verilməyənə qədər bir nəfər də olsun erməni əsiri qaytarılmamalıdır.

**Hərbi ekspert Elçin Alıoğlu:**

- İşğaldan azad edilmiş ərazilərimizdə son həftələrlə antiterror əməliyyatı nəticəsində yaxalanmış erməni yaraqlılar əslə müharibə əsiri sayıla bilməz. Yəni hərbi əsirlərlə davranışla bağlı 1949-cu ilin 12 avqust tarixli Cenevrə konvensiyası bu məxluqata tətbiq oluna bilməz. Ən azı ona görə ki, kombatant və ya qeyri-kombatantın azadlığının məhdudlaşdırılmasından çox, terror əməliyyatlarını həyata keçirən və ya keçirməyə hazırlaşan şəxslərdən söhbət gedir. Həmin ermənilər Rusiyanın sülhməramlı kontingentinə və ya Ermənistan Müdafiə Nazirliyinin yetkililərinə təhvil verilməməli, əsirlərin mübadiləsi prosesində obyekt olmamalı, Azərbaycanın hüquq-mühafizə orqanlarına verilərək barələrində cinayət işi açılmalı, istintaq başlanmalıdır.

**Xatırladaq ki, Xocavəndin Tuğ kəndində erməni silahlıların təxribat törətdiyi barədə sosial şəbəkələrdə məlumat yayılmışdı. Ermənilərin təxribatı nəticəsində Beyləqanın Qəhrəmanlı qəsəbə sakini, 1982-ci il təvəllüdlü, çavuş Elmir Rayil oğlu Qəmbərovun şəhid olduğu, daha bir əsgərimizin isə yaralandığı iddia edilir.**

Əntiqə Rəşid

# FHN-nin Vətən müharibəsində fərqlənən əməkdaşları təltif edilib

**Fövqəladə Hallar Nazirliyinin Vətən müharibəsində fərqlənən əməkdaşları təltif edilib.**



Bu barədə Adalet.az-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, əzəli Azərbaycan torpaqlarını 30 ilə yaxın müddətdə işğal altında saxlayan Ermənistan silahlı qüvvələrinin bu il sentyabrın 27-də törətdiyi genişmiqyaslı hərbi təxribata cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişi ilə rəşadətli Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirdi və qısa müddətdə düşməni sarsıdıcı məğlubiyyətə uğratdı: "44 gün sürən Vətən Müharibəsində Azərbaycan böyük Zəfər qazandı.



Qəhrəman Azərbaycan Ordusu tarix yazdı, düşməni diz çökdürərək işğal altındakı torpaqlarımızı azad edib ölkəmizin ərazi bütövlüyünü təmin etdi.

Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçuları və xüsusi rütbəli əməkdaşları torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar əməliyyatlar çərçivəsində fövqəladə halların, o cümlədən düşmənin mərmi və raket zərbələri nəticəsində yaranan dağıntı və yanğınların qarşısının alınması, nəticələrinin çevik aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, təxliyəsi, döyüş bölgəsində yaşayan insanların gündəlik təminatı, habelə digər istiqamətlərdə xidməti vəzifələrini ləyaqətlə yerinə yetirməsi ilə yanaşı, həm də mülki vəzifələrdə olan işçilərindən də Azərbaycan Ordusunun tərkibində döyüşlərdə bilavasitə iştirak edən, şərəfli döyüş yolu keçənlər olub.



Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə həmin əməkdaşlar sırasından Vətən Müharibəsində göstərdikləri şücaətə görə Cəfərov Sadiq Əliağa oğlu "Cəbrayılın azad olunmasına görə" medalı ilə, Sadıqov Nail Novruz oğlu "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə, Ağayev Fəxri Ağarza oğlu "Suqovuşanın azad olunmasına görə" medalı ilə və Vəliyev Yasin Fəyaz oğlu "Ağdamın azad olunmasına görə" medalı ilə təltif ediliblər.



Onu da qeyd edək ki, mənfur Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsindən kənarda yerləşən yaşayış məntəqələrimizi intensiv mərmi və raket atəşlərinə məruz qoyması nəticəsində xidməti vəzifələrini yerinə yetirərkən Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Şəfiyev Rəşad Vaqif oğlu şəhid olub.



**Vətən uğrunda canını fəda etmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralıların tezliklə sağalmasını arzu edirik!"**

# Moskvada Azərbaycan və Ermənistan təhlükəsizlik xidmətləri rəhbərlərinin görüşü keçirilib

**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) direktoru ordu generalı Aleksandr Bortnikovun dəvəti ilə Rusiya Federasiyasında rəsmi səfərdə olmuşdur.**

Adalet.az DTX-nın rəsmi saytına istinadən xəbər verir ki, səfər çərçivəsində Rusiya FTX-nin direktoru Aleksandr Bortnikovun vasitəçiliyi ilə general-polkovnik Əli Nağıyev və Ermənistan Respublikası Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyan arasında görüş keçirilmişdir.



Görüşdə Rusiya Federasiyasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan və beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsinin hazırkı vəziyyəti, sərhəd təhlükəsizliyi, işğaldan azad olunmuş ərazilərdə terrorçuluqla mübarizə, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş və girov götürülmüş şəxslərin taleyinin aydınlaşdırılması, meyitlərin basdırıldığı yerlərin müəyyənləşdirilməsi və əsirlərin dəyişdirilməsi, həmçinin təhlükəsizlik sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

**Eyni zamanda zərurət yaranacağı təqdirdə məlumat mübadiləsi üçün müvafiq əlaqə kanalının təşkilinin vacibliyi də qeyd edilmişdir.**

# *Polad Bülbüloğlu:* "Bəzi silahlı qruplaşmalar hələ də Qarabağda revanş almağa ümid bəsləyirlər"

**"Bəzi silahlı qruplaşmalar hələ də Qarabağda revanş almağa ümid bəsləyirlər, bu, sabitliyin pozulmasına gətirib çıxarır və adekvat cavab tədbirləri zərurəti yaradır.**

Bu sözləri "RİA Novosti"yə müsahibəsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib.



Polad Bülbüloğlunun sözlərinə görə, Rusiya sülhməramlılarının Azərbaycan tərəfi ilə aktiv koordinasiya şəraitində iştirakı ilə dekabrın 10-da Xocavənd rayonunun kəndlərində yaranmış vəziyyət nəzarətə götürülüb. "Dekabrın 27-də Ermənistan silahlı qüvvələrinin kiçik bir dəstəsi Xocavənd rayonunun Ağdam kəndi istiqamətində Azərbaycan ordusunun bölmələrinə hücum edib. Azərbaycan ordusunun bir hərbi qulluqçusu şəhid olub, biri yaralanıb. Cavab tədbirləri nəticəsində qanunsuz erməni silahlı qruplaşmasının altı üzvü məhv edilib", - deyə səfir bildirib.

Polad Bülbüloğlu ümumilikdə bölgədə atəşkəs rejiminin gözlənildiyini, atəşkəsin pozulmasına tək-tək hallarda rast gəlindiyini qeyd edib.

Polad Bülbüloğlu Qarabağ müharibəsinə nöqtə qoyulduğunu bildirib: **"Bunu hər kəs anlamalı və qəbul etməlidir. Bunu nə qədər tez anlasalar, bir o qədər bütün regionun xeyrinə olacaq. Yeni imkanlar pəncərəsi açılıb. İrəli sürülən iqtisadi və nəqliyyatın inkişafı planlarına alternativ yoxdur. Bunu da anlamaq lazımdır".**

# DİN-dən rayonlara getmək istəyənlərə xəbərdarlıq



**Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edir. Nazirlikdən Adalet.az-a verilən məlumata görə, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkənin bəzi şəhər və rayonlarında tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejimi ilə əlaqədar həmin inzibati ərazilərə giriş-çıxış yalnız müvafiq ezamiyyə vərəqələri və ya "icaze.e-gov.az" portalına daxil edilmiş məlumatlar əsasında həyata keçirildiyindən son vaxtlar xüsusilə Bakı, Sumqayıt şəhərlərinin və Abşeron rayonunun ərazisində yaşayan və işləyən şəxslərin kütləvi şəkildə ailə üzvləri ilə birgə məhz həftəsonu və ya bayramqabağı ezamiyyə adı ilə respublikanın ayrı-ayrı bölgələrindəki istirahət zonalarına getmələri müşahidə olunur.**

Verilən icazədən sui-istifadə hallarının qarşısının alınması məqsədilə bir daha nəzərə çatdırırıq ki, həftənin şənbə və bazar, habelə bayram günləri xüsusi karantin rejimi tətbiq edilmiş inzibati ərazilərə giriş və ya çıxış etməyə cəhd edənlər karantin postlarından buraxılmayacaqlar.

Daxili İşlər Nazirliyi vətəndaşları xəbərdar edir ki, sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunan şəhər və rayonların inzibati ərazilərində, o cümlədən istirahət mərkəzlərində polis və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən mütəmadi reydlər keçiriləcək və bu zaman iş icazələrindən sui-istifadə edərək istirahət mərkəzlərində olan şəxslər aşkar ediləcəyi təqdirdə belə icazələr ləğv ediləcək, habelə onlar qanunvericiliyə uyğun olaraq, məsuliyyətə cəlb olunacaqlar. Bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

**Səbrli və anlayışlı vətəndaşlarımıza qabaqcadan təşəkkür edirik.**

# Üç şəhid anası Azərbaycan vətəndaşlığına qəbul edildi

**Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etmək istəyini bildirən bir neçə şəhid anasının müraciətlərinə müsbət yanaşılıb və Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə onların hər biri Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilib.**

Bu barədə Adalet.az -a Dövlət Miqrasiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, bu şəxslər - 2020-ci il 14 iyul Tovuz döyüşlərində şəhid olmuş və Azərbaycan Respublikası Prezidentinin 09.12.2020-ci il tarixli Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş Mirzəyev İlqar Anzor oğlunun anası - Mirzəyeva Gülnar Abdulla qızı, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş və Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il tarixli Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilmiş Əliyev Romir Rəşadət oğlunun anası - Əliyeva Miroslava Petru qızı və Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş Məmmədov Rafiq Sahibulla oğlunun anası- Rotar Ana Andreyevnadır. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş bütün Şəhidlərimizin ruhuna dərin ehtiramımızı bildiririk. Allah rəhmət eləsin!

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Şəhid baş leytenant Həmid Qasımov*



**"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz baş leytenant Həmid Qasımov.**

**11.12.1994-cü il təvəllüdlü Qasımov Həmid Oruc oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək qəhrəmancasına Şəhid olub.**

*Şəhid gizir Zamiq Hacıyev*



**"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz gizir Zamiq hacıyev.**

**22.11.1983-cü ildə Beyləqan şəhərində anada olan Hacıyev Zamiq Eldar oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək qəhrəmancasına Şəhid olub.**

*Şəhid Nurlan Məmişov*



**"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz Nurlan Məmişov.**

**29.08.2000-ci il təvəllüdlü Məmişov Nurlan İlqar oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək qəhrəmancasına Şəhid olub.**

*Qəhrəman Şəhidimiz gizir Ramil Qurbanov*



**"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz gizir Ramil Qurbanov.**

**06.01.1987-ci ildə Beyləqan rayonu, Dünyamalılar kəndində anada olan Qurbanov Ramil Sudeyif oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 27.09.2020-ci il tarixində Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin 6 yaşlı oğlu Rəşad və 5 yaşlı oğlu Murad Vətənə əmanət qalıb.**

*Əmanətin əmanətimizdir*



**"Cəbrayılın azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Hüseyn Quliyev.**

**28.08.1991-ci ildə Beyləqan rayonu Örənqala qəsəbəsində anadan olan Quliyev Hüseyn Aydın oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 08.10.2020-ci il tarixdə Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin 5 yaşlı oğlu Əli və 5 yaşlı qızı Fatimə Vətənə əmanət qalıb.**

**Allah rəhmət eləsin.**

# Qarabağa dönüş



*Sabir Rüstəmxanlı,*
*Xalq şairi*

(əvvəli ötən şənbə sayımızda)

"Qollarını boynuma bərk-bərk dola ,buraxma,
Səni qaldıracağam-bu daşlar buz olsa da!
Yaran da sağalacaq Şuşanın havasından,
Bir yerdə gedəcəyik bu yol sonsuz olsa da!"

Boynunu qucaqlayan yaralı dost qanaddır,
Soyuq payız gecəsi əsgərim yanıb gedir.
Nə sınmaz bir dəyanət,
nə sarsılmaz inaddır
Yaralı dost yük deyil, yenə dırmanıb gedir!..

"Qardaş, sən burax məni,
ağıram, üzülmə, get!
Bax Şuşaya doyunca, mənim də gözümlə, get!"

"Şuşaya öz gözünlə, sap-sağlam baxacaqsan!"
Belə deyir əsgərim yaralı qardaşına
Allah ona güc verir, coşur damarında qan,
Hamıdan tez dırmanır qayaların başına!

Düşmənin əcəllidir dərələrdən dikələn,
Haraya girir girsin, tapacaq, endirəcək.
Neçə projektoru sübhün əsintisiylə,
Ya da öz nəfəsiylə şam kimi söndürəcək!

Üzeyirin Cəngisi birdən gəlmişdi dilə
Xanın, Seyidin ruhu bir muğam çaldırırdı
Şəhid qəhrəmanlarım görünməz əlləriylə
Adsız qəhrəmanları Qalaya qaldırırdı!

9.
Arxada qaldı divar, öndə düşmən səngəri,
Səngərin o üzündə ruhumuzun şəhəri.
Pənah xanın, Vaqifin, Natəvanın şəhəri,
Zirvələrə köklənən tar-kamanın şəhəri.
Hər həyətdən yollara aşan qızıl gülləri,
Canlı güllər eşqinə oxuyan Bülbülləri.
Nəcəf bəyin ocağı, Əhməd bəyin yuvası,
Hacıbəyli nəslinin bitməz vətən qovğası.
Gah tarixə əl atdı, gah bu günü dindirdi
Gah da Koroğlu yazıb milləti sevindirdi.
Həm bulaq zümzüməsi, həm okean səsiydi
Üzeyir musiqisi-ruhun mösüzəsiydi....
Söz=söhbəti dillərdə, kefi daim çağ olan,
İşi--sənət, musiqi, yazıb-yaratmaq olan
Dağı,daşı, torpağı tarixdən bu yana sir,
Bir qaraçı nəslinə qala bilərmi əsir...
Səsim, sözüm, musiqim bu bu qayanın üstündə,
Məni kim endirəcək bu qayanın üstündən?
Bu səngərdə yenilsən divardan enmək olmaz.
Şuşanı fəth etmədən geriyə dönmək olmaz...

Əsgər fürsət bilincə qaranlıq gecələri
Dumanla qatılaşıb bu bələdçi qaranlıq.
Səsindən işıqlanıb şəhərin küçələri
Addımından oyanıb yatan ruhlar bir anlıq.

Mürgülü keçıkçılər göz açıb-qırpanacan
İçirlər nuşi-canla ölümün şərbətini.
Nə anlaya biliblər hara uçub getdi can,
Nə sözə nıvbə çatıb anlada heyrətini.

Göyün dumanı kimi qondu düşmən başına
Yerdın, göydən gəldiyi bilinməyən bir əsgər.
Mərmi, güllə başına dolu kimi yağsa da
Yürüşü pozulmayan, ələnməyən bir əsgər.

Səsi çıxmazdan qabaq ağzından çıxır canı,
On ölkədən gələnin əcəli burda çatır..

Düşmən bir də ayılır, yollarında Şuşanın
Məscidə doldurduğu donuz sürüsü yatır.

Döşünə döyən ordu qanqal kimi biçilib,
Leş-leşin üstündədir, oyanmaz bu yuxudan.
Düşmən siçana dönüb, düşmən elə kiçilib
Silahla bir-birinə saldırır qorxusundan.

Günahsız körpələrinqanı tutub gözünü.
Hesabat verməlidir bu qiyamət günündə.
Qorxudan ağlı çaşıb biçir özü=özünü.
Bir ordu qaçıb gedir yüz əsgərin önündən.

İntiqam səhnəsini qəsdən uzadır gecə,
Yalvarışlar qaçırır dağların yuxusunu.
Dumana çevrilərək yerə üz sürtüb keçən
Əsgər aslana dönüb qovur it ilxısını,

Dabanına tüpürüb generalı, zabiti,
Tankın, topun üstündən tullanaraq qaçırlar.
Arvad-uşaq qatili dözmür ər döyüşünə
Tülkü texnikasını qullanaraq qaçırlar.

Şuşanın dolayları dönüb şahmar ilana,
Sağ çıxanlar bu yolda ərisinlər , itsinlər
Heç kim cəsarət edib boylanmasın dalına.
Açılıb Laçın yolu qoy rədd olub getsinlər!

Şuşanın gecəsindən yad nəfəsi hayların
Sökülüb atılnca astaca sökülür dan.
İşığı qayıdıbdır Günəşlərin, Ayların
Müqəddəs bayrağımdır gecəni aydınladan!..

***
Bu gün türkün bayramı, işğalçının yasıydı,
Allahın hökmü ilə yazılmışdı bu yazı,
Onun "bəla" dediyi Allahın balasıydı.
Xocalı qırğınının alınmışdı qisası.

Ordum Cəbrayıldadır, Arazdan bir az bəri,
Arada sıx meşələr, neçə cəbhə xətti var.
Düşmən hələ bilmir ki, savaşın dahiləri
Adsız qəhrəmanlarım, Yaşma iğidləri var

Allahın hökmü ilə yazılmışdı bu yazı,
Millətimin zilləti axır çatmışdı sona.
30 illik həsrətin alınmışdı qisası,
Bir milyon göz baxırdı öz viranə yurduna!

10.
Murovun, Dəlidağın üstündən çəkilir çən,
Qəddini yavaş-yavaş dikəldir yorğun Vətən.
İntizarı dağlır yad olmuş sahillərin
Süsləndikcə üçrəngli bayraqla Xudafərin.
Otuz il ümid verib bizi susduran susur,
Ümidini qırdıqca Azərbaycan ordusu.
Bayram havası gəzir şəhərləri, kəndləri
Paylandıqca hər axşam qələbə tvitləri.

Ax dünya, qəddar dünya, əsiridir yalanın,
Başını əzib keçmir bu zəhərli ilanın,
Köhnə Səlib havası dolaşdıqca başında
Neçə ölkə səf tutur yenə din savaşında.
Tanrı da əsir düşüb siyasətə, sir deyil,
O özü bir olsa da elçiləri bir deyil.
Şükür, yıxıb dağıdır bu çürüyən bütləri
Qanımdan qanad taxan qələbə tvitləri.

Şeytan üskük oynadır erməni kilsəsində,
Nə Allah sevgisi var, nə inanc hiyləsində.
Hər keçənə əl açır, hər tərəfdən pay umur,
Dosta xəyanət edib kənardan haray umur.
İnsanlıqdan danışır, ancaq xəyalında qan,
Nə keşişdən əl çəkir, nə ayrılır molladan.
Pozur bu oyunları yurdumun igidləri
Yayıldıqca dünyaya qələbə tvitləri.

Qartal kimi açılır Şuşanın qanadları,
Yorur Cıdır düzünü Qarabağın atları.
Haq tutur öz yerini, kökü kəsilir şərin,
Dağıdır matəmini səsimiz Kəlbəcərin.
Açır öz qollarını Kirs yolu, Laçın yolu,
Düzlənir ayağımda dağların qırçın yolu.

Aşıb keçir əsgərim divarları, sədləri
Dilində nəğmə kimi qələbə tvitləri!

Bu bizim haqq işimiz, ədalət savaşımız,
İntiqam ala-ala dikələcək başımız,
Vur, əsgərim, vur!- deyə əmr eləyir komandan
Qoy bir də yurdumuzda tokülməsin nahaq qan.
Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımızın üstündə üçrəngli bayrağımız!..
Qovur öz yuvasına quduzlaşan itləri!
Ali baş komandanın qələbə tvitləri!

11.
Minadan təmizlənsə gedərdik Qarabağa,
Bəlkə tövbə etməyə, bəlkə üzr istəməyə.
Cığırları oyadıb, kəmənd atıb hər dağa,
Sizi çox gözlətmişik, bağışlayın, deməyə.

Düşünmə daş cansızdır, öz ömrü var daşın da,
Soruşsan doğma dillə güzgü tutar min ilə
Ancaq ölçü ayrıdır onun daş yaddaşında.
Onun vaxt sayğacının adı bilinmir hələ...

Hər qaya milyon ilin harkdiskidir elə bil,
Göyün bütün səsləri yazılıbdır o başdan.
Ulduzların dili də bəlkə ona yad deyil,
Bəlkə də qopub qalır bir uzaylı uçuşdan
.
Kağızlar yandırılır, papiruslar çürüyür,
Ancaq torpaq kitabın pozulmur yazıları.
Ağac kimi, ot kimi bu dağları bürüyür
Nəslimizin minillər yaşayan arzuları.

İndi otlar saralıb, evimiz külə dönüb,
Ölüm nəfəsi əsib hər ığırdan, hər izdən.
Biz də dirilik kimi dizin-dizin sürünüb,
Ayrılaq evimizdə qaşqın keçmişimizdən.

Yaz gələ, ağac kimi çiçəklənə həvəsim,
Çatılan köçlərlə bir qayıdım Dəlidağa,
Bu şəhər tünlüyündə sıxılanda nəfəsim
Loğman dağlar yenidən yol açar yaşamağa.

İstisuyun başında susmaz sazın kafesi-
Yanıq divarlarda da bir ilham rüzgarı var
Ala göllər üstündə coşar cıdır həvəsim,
At uçar, daşlardan da göylər məni çağırar.

Bu daş kitabələrdə dünya fərqli, vaxt ayrı,
Daşların güzgüsündə bir də boylan elinə,
Gör hansı gözəlliklə insan açar axtarır
Buludların şəklinə, ulduzların dilinə.

Görək adsız bulaqlar kimi qonaq gətirib
Şamil qardaşımızın Kürd əvşarı səslənsin.
Bu dağlar əzəl gündən mərd oğullar qucağı,
Qoy yenə hər obada Aşıqları bəslənsin.

Dağların da ruhu var- o, bizim ruhumuzdur,
O, insanın əşqidir, pirə, ocağa dönən.
Altaydan Qarabağa nizami ordumuzdur,
Qara dumanlarda da yenə uca görünən!

"Yar-yarını istəsə!"- dağlardan bir qız səsi,
Əbədi bir gəncliklə sevgisini oxuyar.
Yenə hər gün Turşsuda bir Koroğlu nərəsi,
Yenə qızlar xalcada Nigar eşqi toxuyar.

Zirvələrə qalxınca gücümüz oyanacaq
Bu güc tarixdən gələn ulu Turan gücüdür!
Savalandan Tanrıya, Ağrıdan Altaylara
Min illərlə var olan bir qəhrəman gücüdür.

Süfrəmdən pay umanlar bir deyil, iki deyil,
Elə ki qarnı doyur unudur keçmişini.
Bu dağlar öz suyundan yolçuya da pay verər,
Harama əl uzatsa sındıracaq dişini.

Yolu Təbrizdən keçir Qarabağın!- demişdi
Bir ilkə qəhrəmanı, çarəsizlik anında.
Sən demə Qarabağdan keçirmiş Təbriz yolu!-
Millət hökmünü verdi bu savaş meydanında.

12.
Gözün aydın, Millətim, qurtardın sıxıntıdan
Daha hədyan maşını üstünə gələ bilmir.
Ancaq erməni pulu dolaşdıqca ortada
Dini, irqi pul olan yatıb dincələ bilmir...

Dünya boynunu büküb böyüklərin önündə
Çarəsiz, əli bağlı sonunu gözləyərkən
Ayılara güvənən tülkünü boğmağınla
Məzlumların könlünə sən oldun ümid əkən.

O əllər ki uzandı sənə çətin günündə
Qardaşların əlidir, qızıla tutulmalı.
Üzdə bəradər deyib, düşmənə dayaq olan
Dinimə ləkə olan şeytandan qurtulmalı!

13.
Ey qoca Azərbaycan! Hak nazilir üzülmür,
Sənin zəfər gününə yazıram yeni dastan.
İki bitməz nəğməsi olmalı bu dastanın
Birincisi Türkiyə, ikincisi Pakistan.

Ədalətdir yolumuz, Bunu Allah görürdü,
Ədalətə söykənən verməz namərdlərə can!
Bu namus savaşında səsinə səs verirdi
Ankaradan Türkiyə, Kəraçidən Pakistan!

Üç bayraq dalğalanır üç qardaşın şəninə.
Silir göz yaşlarımı iki əl, çıxım yasdan.
Bir dua da artacaq duamın üzərinə,
Alqış sənə Türkiyə, Alqış sənə Pakistan!

14.
Bir vaxt Nuru paşa da gəldi qardaş hayına,
Dirək oldu yurdumda min könül sarayına,
Ocaqımız külləmib, ümidimiz sönəndə,
Bakı, Şuşa, Zəngəzur qan gölünə dönəndə.
Tiflisdən, Qarabağdan, Naxçıvandan keçmişdi.
Neçə gizli tələdən, neçə qandan keçmişdi.
Osmanlı zor durumda, qardaşın halı da pis,
Bir yanda rus daşnakla, bir tərəfdə ingilis.
Bütün oyunlar bitib, bütün yollar tutulmuş,
Bakı bunların olub, millətim unudulmuş.
Onda da öyünürdü düşmən silah-sürsatla,
Bakı dəmir zirehdə, paşam tələsir atla,
Ancaq atı uçuran belindəki qeyrətdi,
Düşməni diz çökdürən gənc paşaya heyrətdi...
Aradan yüz il keçib, dünya köhnə dəyirman,
Üyüdülmək növbəsi- sırada biz, müsəlman!
Sırada biz- Ədalət! Haq deyib, haq istəyən,
Öz halal torpağına sahib çıxmaq istəyən!
Zaman deyir dağının, daşının qədrini bil,
O köməyə tələsən Paşanın qədrini bil!
Kökün, gövdən bir olub, budağın da bir olsun,
Qaldır bu sərhədləri, torpağın da bir olsun!
Mən bu yolun ağıyam,
Ağıyam, çırağıyam,
Sür gözünə nur gəsin
Türküstan torpağıyam!
Torpağın bir olanda gözünə nur gələcək!
Sənin ədalətində millətlər dincələcək!
Turan deyib qopxurlar, sən də böyü Turan ol!
Bu nifrət əkənlərin ümidini qıran ol!..

Noyabr, 2020

15.
*Yolüstü söhbət*
*və ya*
*Qələbədən 25 il öncə yazılmış nəticə*

...Görən yenə Şuşanın bal dadırmı havası,
Tərtərin nəğməsinə görən kim qulaq asır,
El gedəndən Həkəri necə boğur hirsini,
Yazılı daşlarımız kimə verir dərsini?
Bizləri unutdumu görən Göycə , Zəngəzur
Təbriz niyə danışmır,Ərdəbil niyə susur ?
Bu ehkam dağlanda qatmazlar ki aranı
Nə qədər vaxt gərəkdir sağaldaq bu yaranı?
...Hər sözün başı sual, hər sualın sonu qəm,
Bu qəmlərin ardında qəmsiz səhər görürəm.
Deyirsən bitəcəkmi bu ağrılar?
Deyirəm, hə, bitəcək!
Ömrümüz o illərə yetəcəkmi?
-Yetəcək!

(ardı 7-ci səhifədə)

# "Qarabağ zəfəri" adlı ən Ali Medalı Cənab Prezidentimizdən aldıq!




*Aygün ATTAR*
*Prof. Dr., TADİV Başqanı, Dünya Azərbaycanlıları Koordinasiya Şurasının üzvü*


*Biz "Qarabağ zəfəri" adlı ən Ali Medalı Cənab Prezidentimizdən aldıq!*

*Bu gün Prezidentimiz Ali Baş Komandan Cənab İlham Əliyev bizləri, dünya azərbaycanlılarını təbrik etdi.*

*Səmimiyyət və sevinc dolu təbrikdə Şanlı Zəfərə imza atmış müzəffər komandanın hiss və həyəcanının yansıması və 2020-ci ildə Azərbaycan dövlətinin gördüyü tarixi işlər haqqında ətraflı məlumatlar var.*

*Bu, Cənab Prezidentin dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılara olan baxışını, başqa sözlə, ölkə rəhbərinin vətəndaşlarımıza qarşı hiss etdiyi məsuliyyətin göstəricisidir.*

*Prezidentimiz bu qədər çox işinə rəğmən soydaşlara ünvanladığı təbrik müraciətində belə bizləri birləşdirən ortaq dəyərimiz olan Can Azərbaycanımız haqqında, Vətənimizdə görülən işlər barəsində ətraflı məlumat verməyi özünə borc bilir.*

*Biz də vətəndaşlar olaraq eyni məsuliyyətlə davranmalıyıq.*

*Dünya azərbaycanlıları olaraq 2020-ci ili başımız uca bir şəkildə geridə buraxırıq. Sevincimiz hədsizdir, amma kədərimiz də çox ağırdır.*

*Çünki 2783 gənc övladımızı Vətən yolunda qurban verdik. Bütün şəhidlərimizin ruhu qarşısında ehtiramla əyilirik. Bundan sonra atdığımız hər addımda şəhidlərimizin ruhlarının şad olması məqsədli vəzifəmiz olmalıdır. Əminik ki, Cənab Prezidentimiz tərəfindən bütün Azərbaycanı təmsilən sıxılmış o dəmir yumruq, təxribatlardan əl çəkməyən düşmənin başını əzməyə, şəhidlərimizin intiqamını almağa davam edəcək!*

*O yumruq gücünü bizim birliyimizdən, bərabərliyimizdən alır, bunu qətiyyən unutmamalıyıq.*

*Biz cəbhədə müharibəni qazandıq, amma bir çox vacib sahələrdə isə müharibəmiz davam edir.*

*Qüdrətli Azərbaycanın yeni şanlı tarixinin yazıldığı bu günlərdə bizim hər zamankından daha çox həmrəy olmağımız, birlikdə hərəkət etməyimiz vacibdir.*

*Cənab Prezident müharibə zamanı ən ağır və çətin günlərdə belə bütün çıxışlarında bizi, xaricdə yaşayan soydaşları , Dünya Azərbaycanlılarını unutmadı.*

*Ölkə rəhbərimizə, bizə zəfər sevincini bəxş edən Ali Baş Komandanımıza Dünya Azərbaycanlıları adından minnətdarlığımızı bildirmək, sonuna qədər onun ətrafında sıx şəkildə birləşməyə davam edəcəyimizi açıqlamaq bizim Vətən borcumuzdur.*

*Cənab Prezidentə və ailəsinə, bütün Azərbaycana yeni təqvim ilində can sağlığı və yeni ildə uğurlarla dolu günlər arzu edirik.*

*Biz fərqindəyik ki, Cənab Prezident bir an belə olsun hiyləgər düşmənlə və onun tərəfdaşları ilə qarşı-qarşıya durduğumuzu unutmur. Hər addımını ona görə düşünülmüş şəkildə atır və şükr ki qazanır! Diplomatiya, açıqlanmayan, amma mənfəətlər üçün görülən işləri bacara bilməkdir. Ölkə rəhbəri hazırda bu diplomatic həmlələrlə məşğuldur.*

*Biz də Vətəndən uzaqdan yaşayan azərbaycanlılar olaraq namərd "qonşu" olan azğın düşmənimiz sayəsində uğradığımız haqsızlığı, erməni vandalizmini dünyaya qəbul etdirmək üçün böyük məsuliyyətli işlərə dair üzərimizə düşən vəzifələri unutmamalıyıq.*

*Amma bəzən unuduruq, həm də təəssüflər olsun ki, ən kritik günlərdə unuduruq!*

*Bizim nəsil 1990-dan sonra çox sayda xarici ölkələrə yerləşərək Azərbaycanın son əsrdəki ikinci mühacir nəslini yaratmış olan insanlardır.*

*Azərbaycan tarixşünaslığında siyasi mühaciərətə dair ilk dəfə elmi monoqrafiya yazaraq namizdəlik dissertasiyasını müdafiə edən insan olaraq 1920-ci ildən sonrakı mühacirlərimizin nələr çəkdiklərini çox yaxşı bilirəm.*

*Biz çox fərqliyik, şükr!*

*Hər şeydən əvvəl arxamızda dağ kimi duran müstəqil dövlətimiz, Can Azərbaycanımız var.*

*Bizləri birləşdirən və bizlərin gücündən maksimum istifadə edərək yaşadığımız ölkələrdə fəaliyyətlərimizə dəstək vermək üçün dövlətimiz tərəfindən qurulmuş Diaspora Komitəmiz var.*

*O komitə ki günlərdir onunla bağlı mükafat, təşəkkür, orden, medal söhbəti baş alıb gedir.*

*O gecə nə medal, nə təşəkkürnamə almadığım halda sabaha qədər mənə zəng edən, mesaj yazaraq ağızlarına gələni söyləyən soydaşlara vəziyyəti başa salmaq üçün mənim komitəyə nə ad, nə siyahı təklif etmədiyimi anlatmaq üçün Aygün Həsənoğlu xanımın da köməkliyi ilə dəridən, qabıqdan çıxdım.*

*Amma burada onlardan bəhs etmək istəmirəm. Görürəm ki, günlərdir bəzi soydaşlar "youtube"dan, bəziləri sosial mediadan istifadə edərək danışırlar, tənqid edirlər. Tənqid etmək olar, amma təhqir ilə tənqidi bir-birinə qarışdırmaq, tənqid adı altından insanları təhqir etmək doğru deyil!*

*30 ildir ki təkbaşına gördüyüm işlər haqqında 3 dəqiqə danışmayan mən, biri deyib, digəri ona züy tutan insanları düz 3 gündür müxtəlif məcralardan dinləyirəm.*

*Əksəriyyətinin danışığından elə çıxır ki, sanki görülən işlərdə heç dövlətin, onun qurduğu Komitənin qətiyyən rolu olmayıb.*

*Əl-insaf!*

*Şübhəsiz, böyk fədakarlıqlar olub, əlini daşın altına qoyan, çətin gündə əmək verən soydaşlarımız çox sağ olsunlar, amma bu işlərdə ən böyük maddi və mənəvi yardımı Azərbaycan Dövləti, onun qurduğu Diaspora Komitəsi edib axı!*

*Haqsızlıq etməyək.*

*Komitəyə və onun rəhbəri Fuad Muradova bu qədər təhqiramiz şəkildə yüklənmək, həm də bunu Azərbaycana el qapılarından daşlar atıldığı bir zamanda eləmək, elə Azərbaycana özümüzün əliylə daş atmaqdır axı...*

*Fuad Muradovun 44 günlük müharibə dövründə səhərə qədər komitədə qalıb uzaq ölkələrdəki bizlərlə birlikdə kompüter önündə işlədiyi günləri nə tez unutdunuz?*

*Komitənin qurduğu operativ votsap gənclər qrupunun dünyanın dörd bir tərəfinə müxtəlif dillərdə ötürdüyü məlumatlarla tvitter, instaqram hesabları üzərindən ermənilərə qarşı yürüdülən uğurlu informasiya müharibəsini inkar etmək haqsızlıq deyilmi? Trend Topik Həştəqlər üçün Komitə tərəfindən bizlərə verilən dəstək nə tez yadımızdan çıxdı?*

*Başda Fuad Muradov olmaqla 24 saat ərzində gecə-gündüz demədən bütün komitə üzvlərinin telefonları hamımızın üzünə hər zaman açıq olmadımı?*

*Əlbəttə, hələ görüləcək işlər var, amma mövcud çatışmazlıqların hamısını Komitənin sədrinin üstünə yıxmaq nə dərəcədə doğrudur?*

*Axı bu insanın əlindən gələni etmək üçün çırpındığını hamımız bilirik.*

*Əgər nöqsan varsa, elə bizim özümü də bunda günahkarıq axı!*

*Komitə fərdi deyil, kollektiv işin birlikdə ortaya çıxardığı nəticələrlə təhlil edilməlidir.*

*O kollektivin əsas üzvləri də bizik. Demək ki, bizim işlərimizdə, bizim özümüzdə də nöqsanlar var. Özümüzü niyə tənqid etmirik?*

*Özünütənqid kiməsə sərf etmədiyi üçün hamının bir nəfərin (sədrin) üstündə düşməyi qətiyyən vicdanlı bir yanaşma deyil.*

*Qəbuledilməzdir və ayıbdır.*

*Erməni diasporasının Avropa Parlamentindən son bir ayda Azərbaycan əleyhinə çıxartdıqları qərarları qəbul edənlərə qarşı heç Fuad Muradova hücum etdiyiniz qədər mütəşəkkil şəkildə hücum etmədiniz, maşallah!*

*Bu yazıdan sonra mənə də hücumlar olacaq, bilirəm.*

*Ancaq hər kəs bilir ki, mən heç PKK-dan və dəfələrlə sui-qəsd təşəbbüsünə məruz qaldığım (Türk dövlət qurumlarından təsdiq edərlər) erməni diasporasından qorxmadığım kimi;*

*Selahattin Demirtaş və Garo Paylan haqqında Vətənə xəyanət maddəsilə iş açaraq təkbaşıma məhkəməyə verdiyim üçün ölümlə təhdid olunanda necə qorxmadımsa, medal və sair səbəblə ortalığa vəlvələ salanlardan da qorxmuram.*

*Allahdan başqa heç kimə də baş əymərəm və şair Nəsimi demiş, ruzimi verən Xudadır, qula minnət eyləməm!*

*Komitə tərəfindən haqsızlıq olubsa (bəzi insanların unudulduğunu, bəzilərinin haqqı olduğu halda siyahıda yer almadığını bilirəm) bu, nəzakətlə dilə gətirilər və oturub müzakirə olunar.*

*Yoxsa erməni terroristləri Qarabağda terror törətməyə, əsgərlərimiz şəhid etməyə davam edərkən, Vətən üçün hər cəbhədə mübarizəmiz davam edərkən qalxıb öz-özümüzlə vuruşmaq bizə yaraşmaz!*

*Bu sətirləri kiməsə yol göstərmək üçün yazmıram, nə həddimə!*

*Amma dşümna sevindirməyin zamanı deyil axı!*

*Gəlin dövlətimizin qurduğu Diaspora Komitəsi ilə birlikdə milli mənfəətlərimizə zərər verən düşmənlərimizə qarşı mübarizə edək, enerjimizi Azərbaycanın xeyrinə olan işlərə ayıraq.*

*Zaman birlik, bərabərlik zamanıdır.*

*Zaman həmrəy olmaq zamanıdır və həmrəy olmaq gözəldir.*

*Önümüzdə çox mükafatlar veriləcək illərimiz olacaq. Təki sağlıq olsun!*

*Ən böyük mükafatımız onsuz da aldıq.*

*Qarabağ Zəfəri ən ali medal olaraq 50 milyon azərbaycanlı ilə birlikdə 250 milyonlu Türk Dünyasının yaxasına taxıldı. Şükr, bu bizə yetər!*

*Növbəti medalımız Zəngəzur Zəfəri, İrəvan Zəfəri olsun inşallah!*

*Hamımızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edirəm!*

*Birlikdə, səadət dolu böyük zəfərlərlə zəngin bir il arzulayıram.*

*Bilirəm ki, hər bir azərbaycanlı bu cümləni qürurla təkrar edir:*

*"Qarabağ Zəfəri ilə mən ən ali medalı Cənab Prezidentdən aldım!"*

Poema

# Qarabağa dönüş

(əvvəli 6-cı səhifədə)

**Ovacağıq Şuşada düşmənlərin burnunu,**
**Erməni kimdir türkün sındıra qürurunu?**
**Bu da Qırbin fitvası, bu da bir sirdi olub,**
**Yoxsa o bizi yensun?**
**Hansı əsrdə olub?**
**Bu köç geri dönəcək səfərdən dönən kimi,**
**Dağlar da dikələcək ruhumuz dinən kimi!**
**Qurulacaq Qarabağ əvvəlkindən daha şən**
**Bərdədən Göycəyəcən**
**Sağalacaq yaralar olsa nə qədər dərin,**
**Belini dikəldəcək qocaman Xudafərin!**
**Ağdamın ağ damları,**
**Qəzəlgül hasarları,**
**Kəlbəcər yaylaqları,**
**Alagöllər üstündə sazın coşan çağları**
**Hər bulağın üstündə uzanan məclisimiz,**
**İşıqlı dağınacan işıq saçan izimiz.**
**Türbələr, qurbangahlar,**
**Didərgin ruhlarımız**
**Sərvətimiz, varımız,**
**On çadırlı obadan min evli kəndlərəcən,**
**Kağız üstə yarımçıq çəkilmiş bəndlərəcən,**
**İlxıların atından, sürünün itinəcən**
**Həkəri balığından,**
**Murovun südünəcən**
**Hər şey dönəcək geri,**
**Tutacaq öz yerini!**
**Elimiz unudacaq bu sınıq günlərini.**
**Dağlara ruh gələcək Şikəstədən, Muğamdan**
**Düşmənlərin əlini üzəcəyəm yaxamdan.**
**Millətim dikələcək qırx milyon, əlli milyon.**
**Bu birlik mahnısını qitələr eşidəcək,**
**Gəncədən Naxçıvana, Naxçıvandan Qəzvinə**
**Əngəlsiz, maneəsiz yollarım çəkiləcək!**
**Sümüyə dirənibsə əsarət bıçaqları**
**Qapımın ağzındadır, demək xoşbəxt çağlarım.**
**Tarix qatarlarını saxlamaz öz yolundan**
**Kiminsə hədələri, kiminsə öləcəyi.**
**Azərbaycan içindən doğulur, diqqətlə bax,**
**Xalqın ruhu bütövsə bütövdür gələcəyi!**

***

**...Bu sözlər yazılanda hələ keçən əsrdi**
**Hələ Qarabağımız Hayastana əsirdi.**
**Ölkə zəif, imkansız, halı pisdir millətin,**
**Arxalı köpəkləri silahla yenmək çətin...**
**İşğalçı göz yaşıyla əl atırdı hər yana,**
**Dünya bizi eşitmir, dünya ona inanan.**
**Ancaq Türkün şərəfi taxtından enməmişdi.**
**İçimdəki ümidlər sozalıb sönməmişdi...**

## *Şahbaz Quliyev, Dilqəm Əsgərov, Amin Musayev və Bayram Kərimov evə buraxılıb*



**Bu il dekabrın 14-də Ermənistanda girovluğundan azad edilərək Azərbaycana gətirilən Şahbaz Quliyev evə buraxılıb.**

**Bunu Trend-ə açıqlamasında Ş.Quliyevin qardaşı İlham Quliyev deyib.**

**Onun sözlərinə görə, Şahbaz Quliyev hazırda Müşfiqabad qəsəbəsindəki evində ailə üzvləri ilə birlikdədir, səhhəti normaldır. Qeyd edək ki, erməni girovluğundan azad edilən Dilqəm Əsgərov da artıq evə buraxılıb. Bu barədə oğlu Kürdoğlu Əsgərov atası ilə birgə şəklini sosial şəbəkələrdə paylaşaraq bildirib. Erməni əsirliyindən qaytarılan Azərbaycan əsgərləri Amin Musayev və Bayram Kərimov da müalicə olunaraq ev buraxılıb. Bu barədə A.Musayevin ailə üzvləri məlumat verib. Bildiriblər ki, artıq Amin Musayev evə buraxılıb: "Özü zəng eləmişdi evə. Dedi ki artıq evə buraxılıblar. Ailə üzvlərimiz getdilər qarşılamağa, vəziyyəti normaldır".**



# Ana Vətənimizin sönməz ulduzları

***44 günlük Vətən müharibəsinin qəhrəmanları -şəhidlərimiz və qazilərimiz haqqında nə qədər yazsaq da onların borclarından çıxa bilmərik***

**”Ulduzlar sönmür” filmi yəqin ki, yadınızdadır. Düzü, məqsədim heç də Azərbaycanın ictimai-siyasi xadimi Nəriman Nərimanovun inqilabi fəaliyyətindən bəhs edənbutarixi-bioqrafik kino əsərindən söhbət açmaq deyil. Çünki keçmişdən üzü bəri istər siyasət aləmində, istərsə də sənət dünyasında Odlar yurdumuzun sönməz ulduzları saya-hesaba gəlməz. Öz istedadları, fədakar əməlləri ilə ulduza çevrilənlər sönməsələr də, zaman-zaman yerlərini, missiyaları dəyişirlər...**



Son vaxtlara kimi”ulduz” deyəndə gözümüzün önünəən çox ara müğənnilər, tamaşaçını güldürmək üçün bəsit məzmunlu yığcam ”komediyalar” çıxaran aktyorlar gəlirdi. Peşkarlıqdan uzaq, sənət yanğısı sönük, iddiaları yerə-göyə sığmayan şou-biznes ulduzlarının sosial şəbəkələrdə klipləri,foto şəkilləri ilə yanaşı, həm də onların bir-birinə atmacaları, usandırıcı təsir bağışlayan statusları paylaşılırdı.Amma ulduz ”xəstəliyi” getdikcə başqa sahələrədə epidemiya kimi yayılırdı. Hətta özəl telekanallarda lazım gəldi, gəlmədi tələm-tələsik hazırlanmış tok-şouları ”əla” fürsət bilibözlərinə təmtəraqlı adlar verən, sinəsini qabardaraq mənəmmənəmlik edəntoy müğənniləri bir-birinə ”toy” tuta-tutaictimai qınağa səbəb olan açıqsaçıq danışıq və davranışlara yol verirdilər.

### Qarabağ və onun ətrafında

***yeddi rayonumuzun 30 ilə yaxın düşmən tapdağında qaldığı bir dövrdə şou-biznes aləminin ”super ulduzlarının” TV-ləri, sosial medianı lağlağı meydanına çevirməsi, özlərinin bahalı maşınlarını, mənzilllərini, geyimlərini, hətta süfrələrindəki bol nemətləri nümayiş etdirməsi demək olar ki, dəb halını almışdı. Ən nüfuzlu KİV-lərin bu barədə tənqidi yazılarına, tamaşaçı-dinləyici iradlarına belə əhəmiyyət verilmirdi.***

Şükür olsun Allaha, 2020-ci ilin 27 sentyabrı həyatımızın gedişatını dəyişdi. Böyük Qələbəmizə vəsilə olan bu payız günündən başlayaraq bizlər təkcə Azərbaycanın şanlı tarixini və bu tarixə şahidlik etmək missiyasını yaşamadıq. Həm də 27 sentyabrdan başlayan və 44 gün davam edən Vətən müharibəsi bizi yazıçı-dramaturq Əli Əmirlinin təbirincə desək, xəcalətli vəziyyətdən qurtardı. Bəli, biz indi üç ay qabaqkı azərbaycanlı deyilik, biz artıq qalib Azərbaycanın vətəndaşlarıyıq. Doğma Vətənimizin hər yerində, küçələrdə, telekanallarında, sosial şəbəkələrdə bu gün əsl Azərbaycan ulduzlarının canlı görüntüləri, videoçarxları, foto-şəkilləri Dövlət bayrağımızla birgə sayrışır. Vətən uğrunda gözlərini qırpmadan canlarını fəda verən bu ulduzların çoxunun tərcümeyi-halı elə ömür yolları kimi çox qısadır.



Fəqət qəlblərində böyük Vətən sevgisi, baxışlarındasəmimiyyət, duruşlarında mərdlik, təbəssümlərində ləyaqət çiçəkləyən bu qeyrətli oğullar yaşından, vəzifəsindən, rütbəsindən asılı olmayaraq Azərbaycanın tərcümeyi-halına qəhrəman kimiyazıldılar...

### Ana Vətənimizin

***sönməz ulduzlarından biri -ölümündən sonra ”Azərbaycan Bayrağı” ordeni və ”Vətən uğrunda” medalı ilə təltif edilmiş gizir Xudayar Yusifzadəni məşhur edən, sosial şəbəkələrdə trendə çevrilən şövqlə oxuduğu ”Vətən yaxşıdır” mahnısı ilə bərabər, həm də onun əbədiyaşar, qalibanə təbəssümüdür.***

İran əsilli məşhur fransalı fotoqraf Rza Diqqəti Qarabağda canlı döyüş səhnələrini, barıt qoxuyan təbiət mənzərələrini, tarixi məkanlarıçəkən peşəkar fotoqrafdır. Lakin Rza bəyəgər Xudayar Yusifzadəni Zəngilanda həmin mahnını oxuduğu anda çəksəydi, yəqin ki, o şəkil dünyanın ən böyük sərgilərində ”Gülüşü gözəl əsgər fotosu”olacaqdı...

### Könül oxşayan şeirlərin müəllifi

Xatirə Rəhimbəyli isə Xudayarın mahnı oxuduğu məqamı elə əsl fotoqraf gözü ilə qələmə alıb: ”...Vətən nur üzlülərin, gülüşü gözəllərin, ürəyi Vətən eşqiylə alışıb-yananların qanıyla yoğrulub. O qandan çiçəklər göyərəcək, uca-uca çinarlar, palıdlar, dəmirağaclar boy verəcək. Nə qədər o meşələr yaşayır, dağlar dikəlir, sular axır o möcüzələr yaşayacaq. Və ətrafına sevinc, səadət, gülüş səpəcək sənin kimi Xudayar bala, sənin gülüşünə bənzəmək istəyəcəük çiçəklər, gülüşü gözəl şəhidim...” Xudayar Yusifzadə kimi gülüşü gözəl şəhidlərimizigid ölən gündətəzədən doğuldular. Axı atalar əbəs deməyib: ”İgid ölər, adı qalar.” Bəs mərdanə duruşu ilə düşmənə gözdağı olan topçumuz Vüsal Şahkərimovun sosial şəbəkələrdə, TV kanallarda ən çox paylaşılan və Azərbaycan Ordusunun Vüsal atəşi adlanan görüntüsü görəsən hansı



foto-müsabiqədənin seçilənulduzu olardı?!Düşmən üzərinə mərmini atıb qürurlu geri dönüşü ilə ürəkləri fəth edən 19 yaşlı Vüsal indi təkXaçmaz rayonunun Qusarçay kəndində doğulub boya-başa çatdığı Şahkərimovlar ailəsinin yox, bütün Azərbaycanın qəhrəman oğludur.

***...Vətənpərvərlik mövzusunda film çəkmək istəyən, 22 yaşlı Fəqan Məmmədovun qəhrəmanlıq göstərdiyi an isə təkcə silah yoldaşlarını deyil, həm də ölüm mələyini belə heyrətə gətirmişdi. Mühasirəyə düşən erməni faşistləri ağ bayraq qaldıran zaman Fəqan əsgər yoldaşları ilə onlara yaxınlaşıb. Hiyləgər düşmən əl qumarasını onlara tərəf atarkən Fəqan silah yoldaşlarının həyatını xilas etmək üçün öz bədənini sipər edib. Tələbə, nişanlı şəhidimiz görəsən o anda hansı hissi keçirib?.***

***Atası Birinci Qarabağ savaşının iştirakçısı olan Fəqan müharibədən çoxseriyalı film çəkmək arzusu ilə yaşayırdı.***

Həqiqi hərbi xidmətini 2021 -ci ilin yanvar ayında başa vurub, təhsilini Mədəniyyət və İncəsənət Universitetində davam etdirəcəkdi. Fəqanın kinorejissorluq fakültəsində müəllimi olmuştanınmış kinorejissor Ayaz Salayev onun igidliyi bir qəhrəmanlıq epopeyası adlandırır: ”Fəqan kimilər dünyaya nadir hallarda gəlir, onlar ölmürlər, ürəklərdə yaşayırlar.”Zaqatalanın saxur millətindən olan sevimli tələbəsinindünya kinosunun tarixini, onun daxilində alicənablıq və şərəf hissini tərbiyə edən şedevrləri öyrəndiyini vurğulayan A. Salayev mənfur erməni faşistlərininFəqanın ruhunda yaşayan Fellini, Antonioni, Berqman, Kurosava, Tarkovski və Kubrik kimidünya şöhrətli kinorejissorları öldürdüyünü bildirib...

***Deyirlər, qəhrəmanlıq fərdin şüurlu və iradəvi olaraq öz həyatından imtinaya hazır olduğu anda baş verir.***

### Elə bu məqamda

10-a yaxın erməni hərbçisi ilə təkbaşına əlbəyaxa döyüşə girən 19 yaşlı Cəbrayıl Dövlətzadənin portreti göz önündəcanlanır. Müharibə bölgəsindən uzaq Sərhəd Qoşunlarında xidmət edən Cəbrayıl özü ərizə yazaraq könüllü döyüşlərə qatılmışdı. Düşməninbir generalını və polkovnikini əlləri ilə boğaraq öldürən igid əsgər general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və onların silahdaşlarınınqisasını alaraq sentyabrın 28-də şəhid oldu. Şəhid yüksək amal, məslək, əqidə, din və inanc uğrunda canını fəda edən adama deyilir.Cəbrayıl da şəhidlik məqamını düşünərək seçmişdi. Hətta düşmənlə təkbaşına döyüşə girəndə, silahdaşlarını geri qaytarıb: ”Sizn ailəniz-uşağınız var, gəlməyin” demişdi. Atası Dövlət bəy oğlunun şüurlu şəkildə şəhidlik məqamının ona Kərbala çölündə İmam Hüseyninşəhadətinixatırlatdığını söyləyir. Vaxtilə Azərbaycanın böyük mütəfəkkiri Ömər Faiq Nemanzadə müsəlmanlarıhəzrəti İmam Hüseynin (ə) millət yolunda şəhidliyini öyrənməyə, onun şəhadətindən doğru nəticə çıxarmamağa çağırırdı:”...həzrəti İmam Hüseyn əleyhsalamın vaqeyi-şəhadəti bizlərə nümuneyi-ibrət, misaliqeyrət deyilmi?”

...2783 şəhidimiz üstəgəl yüzlərlə qazimiz Vətən sevgisinin imandan olduğunu öz canları və qanları ilə sübut etdilər. Onların hər biri fəhmlə tarix yaddaşından və dini inclərimizdən qaynaqlananvə əsrlərin sınağından çıxan ”Azərbaycan xalqı qəhrəman xalqdır” deyiminə münasibəti fədakarcasına yenilədi.Qarabağın azadlığı uğrunda 44 günlük Vətən müharibəsi düşmənlərimizə, eləcə də bütün dün-



yaya üçrəngli Azərbaycan bayrağı altında azsaylı xalqların mərd oğullarının döyüşdüyünü və milli birliyimizin sarsılmaz olduğunu nümayiş etdirdi.

Mən hələ Birinci Qarabağ müharibəsinin qəhrəmanı tank komandiri Albert Aqarunov, ata və anasına ”Şəhid olsam - ağlamayın”deyib təkbaşına düşmənlə savaşan Milli Qəhrəman Mübariz İbrahimov, Aprel döyüşlərinin qəhrəmanı - Murov qartalı polkovnik-leytenant Raquf Orucov, şəhadəti ilə sülsevər xalqımızın səbir kasasını daşıran, vətənpərvərgənclərimizi ayağa qaldıran Azərbaycanın Mulli Qəhrəmanı general -mayor Polad Həşimov və müzəffər ordumuzun yüzlərlə söyməyən ulduzlarından bəhs etmədim. Zamanın və məkanın çərçivəsinə sığmayan qəhrəmanlıq məqamında Allahın müqəddəsnuruna boyanan hər bir şanlı Azərbaycanəsgər və zabitinin portreti dünya sərgi salonlarının şah foto əsərləridir. Pəhlivan cüssəli, gülüşü gözəlşəhidlərimizin hərbi geyimdə çəkilmiş şəkillərində Dövlət Bayrağımızabağlılıq, əsl kişilərə məxsus təəssübkeşlik əbədi həkk olunub.

### ... İnsan ruhu

**da ulduz kimi əvvəl - axır göylərlə bağlıdır.Ana Vətənimizin sönməz ulduzlarının torpaq üzərində - Şəhidlər xiyabanlarında boy-boyaverən məzarları isə gələcək nəsillərə qəhrəmanlıq və vətənrərvərlik aşılayan ziyarətgaha dönüb. Biz - qələm adamları onların haqqında nə qədər yazsaq da borclarından çıxa bilmərik. Çünkü bu gün bütün dünya Azərbaycanlıları onların saysəsində ZƏFƏR sevincini yaşayırlar.**

**Nurəddin ƏDİLOĞLU**

# Onbirillik ülvi sevgini, ana məhəbbətini, qardaş sevgisini Vətən yolunda qurban verən Şəhid

## El oğlumuz aprel döyüşlərində də iştirak edib...

**Vətən Savaşında milli həmrəyliyimiz, xalq-dövlət birliyi daha da möhkəmləndi, yüzlərlə halal süd əmən, yüksək ailə tərbiyəsi görən şəhid və qazilərin qanı hesabına şanlı Ordumuz azğın düşmən üzərində bu Vətən müharibəsində tarixi zəfər qələbəsi əldə etdi. Rəşadətli əsgər və zabitlərimizin şücaəti, döyüş əməliyyatlarını yüksək peşəkarlıqla hazırlaması və həyata keçirilməsi sayəsində bu qələbə ilə bütün dünyaya səs saldıq.**

Söz yox ki, Vətən və millət yolunda canından keçənlərin fəth etdiyi ən yüksək, şərəfli zirvədir - şəhidlik. Amma bu ali mərtəbəyə çatmaq hamıya nəsib olmur. Vətən müharibəsinin şəhidləri sil-silə qəhrəmanlıqlar göstərərək, odun-alovun içində, mərmi, top "yağışı" altında yeni qəhrəmanlıq dastanları yaratdılar. Vətən səmasının əbədi-parlaq günəşinə çevrildilər, heç vaxt batmayan, şövq saçan dan ulduzları oldular. Onlar bir-birindən gözəl, qüssəli, cəsarətli, halallıqla böyüyən şəhid cəngavərlərimiz...

### ...Vətən göylərində

***əbədi parlaq günəşə çevrilən, ürəklərdə daima çağlayan bulağa bənzər, dan ulduzu kimi bərq vuran və qəhrəman el oğlumuz şəhid Elvin Mahmud oğlu Məmmədovdur. Şəhadətə qovuşan Azərbaycanımızın hər bir vətəndaşından, illərlə işğal altında qalan - torpaqlarımızın azadlığı uğrunda - ana məhəbbətindən, qardaşlarının, dostlarının, əzizlərinin istəyindən keçən, hətta 11 illik ülvü sevgini qurban verən - Zaqatalalı Elvin el oğlumuzdan söhbət açırıq.***

Belə insanlar dünyaya nadir hallarda gəlirlər... və həyatda-tarixdə silinməz iz qoyub gedirlər... minlərlə insanın ürəklərinə yol tapırlar, ancaq müsbət keyfiyyətləri ilə...

...Bu Vətən Savaşında ölməzliyə qovuşan Elvin Məmmədov cəmi 28 il ömür sürdü, amma çox mənalı ömür sürdü, gəncliyə örnək olası ömür... Hətda uşaqlıqdan, məktəb illərindən çox çətinliklərlə üzləşib. O, heç vaxt istəməyib ki, valideynlərinə, qardaşlarına, qohum-əqrəbaya, dostlarına əziyyət versin... Nə qədər çətin olsa da öz zəhməti ilə nəyəsə nail olurdu Elvin...

O, 1992 -ci il oktyabr ayının 3 -də Zaqatala şəhərində sadə, zəhmətsevər bir ailədə dünyaya göz açmışdır. Məmmədovlar ailəsinin son beşiyi, yəni 3 qardaşın sonuncusu idi Elvin. Buna görə də uçaqlıqdan hamı Elvinin xətrini çox istəyirdilər. Ailəsində olarkən məlum oldu ki, anası Tahirə xanım uzun illərdir ki, Zaqatala Rayon Mərkəzi Xəstəxanasında çalışır və kollektivdə böyük hörməti var. Atası Mahmud isə 2019 -cu ilin dekabr ayının 15 -də ağır xəstəlikdən dünyasını dəyişib. Mərhum zəhmətkeş insan və təcrübəli maşın ustası olub.

Elvin Zaqatala şəhər, Şıxəli Qurbanov adına 3 saylı tam orta məktəbini əla qiymətlərlə bitirib. Uşaqlıqdan arzusu ali təhsilli bank işçisi olmaq idi Elvinin. Böyük qardaşı ali təhsilli hüquqşünasdır və 2 övlad atasıdır Nizami Məmmədov söhbət zamanı bildirdi ki, şəhid qardaşı son beşik olmasına baxmayaraq, ərkəsöyün olmayıb, tərbiyəli, ağıllı, dərrakəli, səliqəli və xoş rəftar idi. Həmişə dərslərinə ciddi hazırlaşar, valideynlərinin, qardaşlarının sözündən çıxmaz, ev işlərində kömək edərdi, səliqəli geyinər və dərs məşğələlərinə gecikməzdi Elvin. Qardaşı söyləyir ki, "təhsil aldığı 3 saylı tam orta məktəbin müəllimləri onun dərs davamiyyətindən, dərs məşğələlərindən, tədbirlərdə fəal iştirak etməsindən, davranışından həmişə razılıqla danışardılar. Məktəbdə onun çoxlu dostları vardı, xoş, mülayim xasiyyətili, sözü bütöv olduğuna görə oğlanlar da, qızlar da Elvinin xətrini çox istəyirdilər. Texniki fənlərə daha çox meyilli olsa da, vətənpərvərlik tarixi, hərbi mövzulardan, məktəbdə keçirilən dikusiyalardan, tədbirlərdən və yarışlardan, müsabiqələrdən kənarda qalmazdı Elvin" - deyir, şəhidin böyük qardaşı Nizami.

### Öyrəndik ki,

Elvin Məmmədov hələ məktəb illərində ölkəmizin hərb tarixi, sərhədlərimiz, Milli qəhrəmanlarımız, Qarabağ məsələsinin necə yaranması, torpaqlarımızın necə işğal olunması ilə bağlı bilgilər toplayırmış. Tez-tez dostları ilə Zaqatalanın tarixi yerləri və tarixi faktlarla maraqlanarmış. Rus imperiyasının işğalçılıq siyasəti nəticəsində erməni daşnaklarının bütöv Azərbaycanın ərazisində yerləşdirməsini, hiyləgər düşmənin məkirli siyasəti ilə torpaqlarımızı havadarlarının köməkliyi ilə necə zəbt olunmasını daima öyrənirdi. Çünki, o, dünyaya gələndə artıq düşmənlərimiz bizə qarşı çirkin niyyətlərini həyata keçirirdi...

***Əlbəttə ki, onun uşaq yaddaşı, eşitdikləri, gördükləri bunları götürqoy edirdi. Dərin düşüncəyə malik olan qəhrəman el oğlumuz bütün bunlara biganə yanaşa bilməzdi. Sözün düzü, əslində analar öz oğullarını - övladlarını daha yaxşı, daha yaxından tanıyırlar. Axı övlad üçün ən çox əziyyət çəkənlər, onların dərdlərinə şərik olanlar valideynlərdir.***

"...Ana üçün bütün övladlar əzizdir, baldan şirindir. Şükürlər olsun ki, üç oğlumun üçü də çox ağıllı, çox kamallı, hər bir vəziyyəti dərhal anlayandır, zəhmətsevər, halallıqla böyüyəndirlər, zəhmətkeş və vətənpərvərdirlər. Elvinimin aləmizdə öz yeri var idi. Arzusuna, niyyətinə çatmaq üçün əziyyətlərə qatlanardı, biz valideynlərə əziyyət verməzdi. Onun hər bir hərəkəti, dostnan-dost kimi, qardaşnan-qardaş kimi, böyüknən-böyük kimi, kiçiknən kiçik kimi deavranardı Elvin balam" - deyə, Tahirə xanım söhbətimizə qoşuldu...

Tahirə xanım onu da qeyd etdi ki, "mənim balam bir yox, iki müharibənin iştirakçısıdır.

### Duyğulu, arzuları çox idi,

***Elvinimin. Atası ailəni dolandırmaq üçün Rusiya Federasiyasına gedəndə çox narahatlıq keçirmişdi Elvin. Demişdi ki, "əzizim ata, niyə qərib ölkəyə gedirsən, biz ölməmişik ki, işləyəcəyik, qazanc əldə edəcəyik. Mən də, qardaşlarım da artıq böyümüşük, sən uzaqlara getmə". Ali təhsil almaq, bir işin qulpundan yapışmaq, ailəyə qazanc gətirmək və ailə qurmaq onun ən böyük arzusu idi. Milli Ordu sıralarına, həqiqi hərbi xidmətə gedəndə həvəslə, ürəklə, çəkinmədən getmişdi. Ona hərbi mündir də yaraşardı. Goranboy-Tərtər kimi cəbhənin ən qaynar ön hissələrində xidmət edirdi. Hərbi sirləri, döyüş texnikasını peşəkarlıqla öyrənmişdi. 2016 -cı ilin 18 aprel döyüşlərində iştirak etmiş, bir hərbi-***



***çi kimi əsil şüücaət göstərmiş və özünü doğrultmuşdur. Elvin sanki bu döyüşlərdə bir sınaq məktəbini keçmişdi və Vətən Müharibəsində iştirak etməyə təminat yaratmışdı.***

Aprel döyüşlərində o, düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhf etmişdi. Xidmət etdiyi N saylı hərbi hissənin komandiri polkovnik-leyetenant Əflatun Nurəliyev döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətə görə Elvini Fəxri Fərmanla təltif etmiş, bizin adımıza onun imzası və möhürü ilə təsdiqlənən Təşəkkür məktubu göndərmişdir. Bəli, cəsur Elvin balamız əlaçı əsgər kimi Vətənimizə xidmət etmişdi...

Amma o, çox yaxşı başa düşürdü ki, başlar tam əzilməmiş, mənfur düşmən nə vaxtsa yenə də məkrli niyyətini həyata keçirəcək... O, həmişə bunlardan narahat idi. Mən nə biləydim ki, müharibə başlayacaq, oğlum Elvin azğın düşmənlə döyüşəcək və... ana ürəyinə sağalmaz dağ çəkəcək... 2019 -cu ilin dekabr ayının 19 -da həyat yoldaşımı itirdik, 2020 -ci ilin oktybar ayının 15 -i isə kişi qeyrətli, kişi namusli, nəslimizin fəxri olan, son beşiyimizi - Vətən yolunda fəda verdik... Ömürlərinin şirin çağlarında, öz körpə balalarını doyunca əzizləməyən, oğullar itirən analar necə təsəlli tapsınlar, qiymətsiz oğulların yoxluğuna necə alışsınlar..."

***...Bu qürurlu anaya min-min alqış deyirəm, onun qarşısında bir igid, vətənpərvər, mərd və Vətənimiz uğrunda həlak olan şəhid Elvin Məmmədovun anası kimi dəfələrlə baş əyirəm...***

Şəhid - igidimizin qardaşları Nizami və İlqar söyləyirlər ki, Elvin hələ ermənilərin Tovuz rayonundakı təxribatından sonra demişdi ki, əgər müharibə başlasa könüllü cəbhəyə gedəcəkdir. Sentyabr ayının 21 -də Elvin Məmmədov hərbi təlimlərdə iştirak etmək üçün hərbiyə çağırıldı. Qardaşalrı onda anladılar ki, müharibə qaçılmazdır. Onlar Elvini saxlatdırıb, özləri könüllü hərbi təlimlərə qatılmaq istəyiblər. Lakin, o, buna razılıq verməyib.

Yuxarıda qeyd etdiyim kimi bu müharibədə təcrübəli, qorxmaz və cəsur döyüşçü olmuş Elvin Məmmədov 11 illik ülvü, möhkəm məhəbbətini və sevgisini də Vətən yolunda, bütövlüyümüz, azadlığımız uğrunda əbədiyyətə yazdı. Əsil, namuslu - qeyrətli oğul kimi qəhrəmanlıq dastanı ilə yanaşı unudulmaz sevgi dastanını yaratdı - sevən gənclərə nümunə olacaq... Bu gün isə ondan əmanət qaldığı, ürəkdən sevdiyi həyat yoldaşı Xəyalə xanım və bir də ki, hələ 10 aylıq olan şəhidimizin doyunca əzizləmədiyi, yetərincə gəzdirmədiyi, şirin-şəkər qızı Ahunurdur. Hələ də Elvinin yoxluğuna inanmayan, Vətən fədaisinin həyat yoldaşı ilə görüşüb, söhbət etmək mənim üçün çox çətin idi... Çünki gənc yaşlarında az müddət bir yerdə yaşadığı ailə başçısını itirən qadının hansı hisslər keçirdiyi məlum idi. Onu qarşıda enişli, yoxuşlu yollar gözləyirdi... körpə qızının məsuliyyəti, qayğıları və s... Xəyalənin dedikləri:

***Bəlkə də səhf edərəm, müasir dövrdə Elvin kimi həyatın hər bir incəliklərini dərk edən, mətin iradəli, müsbət keyfiyyətlərə malik, qarşılıqlı hörmət saxlayan, niyyətini həyata keçirmək üçün, ancaq halallıqla, zəhməti ilə nail olan şəxslər nadir hallarda olur. Çünki, mən onu 2009 -cu ildən tanıyırdım. Öncə etibarlı, sözü bütöv insan olduğunu bilirdim. Biz bir-birimizə çox bağlı idik. Axı, on bir illik sevgi və məhəbbətimiz bizi hər bir sınaqdan çıxarmışdı.***

Elvin Gürcüstan Respublikasında İqtisad Universitetinin maliyyə-kredit fakültəsini bitirmişdi. Amma doğma Vətənində iş tapmamışdı, Ordu sıralarındaləyaqətlə xidmət etmişdi. Ağır 16 aprel 2016 -cı il döyüşlərində mərdliklə iştirak etmişdi. Mən onun cəsurluğu ilə qürur duyurdum. Həmin döyüşlərdə hərbi peşəkarlığını artırmışdı. Hərbi xidməti başa vurduqdan sonra Elvin yenə də ixtisası üzrə iş axtarıb, lakin iş tapa bilmədiyindən Türkiyə Respublikasına işləməyə gedib. O, həmişə deyirdi ki, bir iş tapmamış ailə həyatı qurmayacaqdır. Çoxlu çətinliklərdən sonra, nəhayət dərman şirkətlərinin birinə imtahanı uğurla verdikdən sonra işə qəbul olundu. O, böyük arzularla yaşayırdı. Ən böyük arzusu isə ailə qurub, yaxşı ev şəraiti yaratmaq və xoşbəxt yaşamaq idi... 2019 -cu ilin mart ayının 20 -də biz ailə həyatı qurduq. Yaşadıqları evdə darısqallıq olduğuna görə biz kirayədə yaşamalı olduq. Buna baxmayaraq, Elvinlə çox mehriban yaşayırdıq. Bir tikəmizi ortadan bölürdük. Övladımız, qızımız Ahunur dünyaya gələndə Elvinin sevincinin həddi-hüdudu yox idi... O, həmişə nikbin olsa da narahat görünürdü... Övladımı, mənimlə bərabər dünyalar qədər istəyirdi... Nəhayət...

21 sentyabr 2020 -ci il gəldi. Elvin hərbi təlimlər adı ilə cəbhə bölgəsinə, Tərtər rayonuna getdi.

### Hərbiyə gedəndə mənə demişdi ki,

nigaran qalma, narahat olma, hər şey yaxşı olacaq, biz tezliklə görüşəcəyik... Sentyabr ayının 27 -də azğın düşmənlə müharibəyə başlayanda isə hər şeyi anladım... Elvinin hərbi təlimlərdən sonra döyüşlərə getdiyini bildim. O, cəbhənin ən qaynar nöqtəsində olsa da, telefonnan danışardı. Sizin özünüzdən və balamdan muğayat ol, məndən nigaran qalmayın - deyirdi.

Amma Evin bizə müharibədən heç nə danışmırdı. Əsil hərbiçi tək hərbi andına sadiq qalaraq cəbhədə nələr baş verdiyindən bizi məlumatlandırmazdı, narahat olmayaq deyə... Sonradan eşitdim ki, Elvin sərrast atıcı kimi Tərtər-Goranboy-Ağdam-Ağdərə istiqamətlərində gedən döyüşlərdə əsil vətənpərvər kimi döyüşüb. Çoxlu mövqelərimizin, dağ yüksəkliklərimizin mənfur düşməndən azad olunmasında fədakarlıq göstərib. O mənimlə sonuncu dəfə oktyabr ayının 15 -də günorta saat 13-14 radələrində telefonla danışdı. Dedi ki, özünə və qızına yaxşı bax... Danışığında nəsə tələş hiss etdim, çox nigaran qaldım". Qəhrəmanımızın həyat yoldaşı deyir ki, "Elvin elə həmin gün Ağdərənin azad edilməsi uğrunda erməni mənfurları ilə gedən qızğın döyüşlərdə ağır yaralanaraq, Vətənimizin xilaskar, mərd oğlu kimi qəhrəmancasına həlak olub"

Məlumatlara görə Elvin Məmmədovun şəhid olduğu döyüşdə, düşmən güclü müqavimət göstərsə də hərbiçilərimiz dığaları susdurub, çoxlu sayda canlı qüvvəsini və texnikasını sıradan çıxardaraq, düçmənlərə sarsıdıcı zərbələr vurublar.

Xəyalə xanım söhbətinin davamında söylədi ki, "Elvinin həlak olması xəbərini 16 oktyabr 2020 -ci il tarixdə saat 10:30 -da aldıq... Elə bil dünya başımda fırlandı, anamgildə idim, qışqıraraq dedim - Axı niyə belə etdin, Elvin?... Sən mənə demişdin ki, hər şey yaxşı olacaq, tezliklə dönəcəyəm... Bəs gələcəkdə Ahunur səni soruşanda nə cavab verim - ay Elvin?" - deyə əlavə etdi...

Qeyd edək ki, Elvin həm də cüdo üzrə idman ustası və dəfələrlə yarış və turnirlərin qalibi olmuşdur. Onun adı şəhid idmançı kimi Cüdo Federasiyasının Şərəf kitabına yazılıb.

...Deyirlər "Vətən ürəkdə şəhidlə bitər..." Ürəyində daima Vətən sevgisi gəzdirən, 2016 -cı ildən bəri Goranboy rayonunun Ağcakənd kəndindən başlanan və Yaşmada xüsusi təlimlərdən keçən hərbi yolu - Bu Vətən müharibəsində şəhid kimi başa vurdu - igidimiz Elvin...

Ruhun şad olsun, Allah sənin əzizlərinə həsrətlə yolunu gözləyən Xəyalə xanıma - Ahunur balana Allah səbr versin - zaqatalanın fədakar oğlu.

**Prezidentin Sərəncamı ilə cəsur eloğlumuz Elvin Məmmədov ölümündən sonra "Vətən Uğrunda" Medalı ilə təltif edilib.**

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**



Şahnaz Şahin

# QOŞA İYİRMİNİN CAZİBƏSİ

Esse

**Hansı yeni ili ümidlə, yeni, təptəzə arzu və istəklərlə başlamamışıq!?.. Bir-birimizi təbrik edəndə də ilk sözümüz:- " Bütün uğursuzluqların, çətinliklərin köhnə ildə qalsın, yeni ildə bütün arzulara çatasan!...", olmayıbmı elə... Bəs çatmışıqmı, doğrudanmı kədərimizin başını aldada, köhnə ildə azdıra bilmişik?.. Mən yox, sizi isə deyə bilmərəm! Amma əminəm ki, elə siz də mən düşündüyümü düşünürsüz, həll edə bilmədiyimiz şəxsi ya ümumi problemlərimiz bizdən qabaq keçib yeni ilə! Deyirlər fikirlərin yenilənmirsə, məkan dəyişməyin mənası yoxdu..**

2020-ci il özündən əvvəlkilərə bənzəmirdi, nədənsə bu qoşa iyirmiyə baxış və münasibət o özü gəlməzdən lap bir il qabaqdan formalaşmışdı. Heç özümüz də bilmirdik niyə bu qədər həsrətlə qoşa iyirmini gözləyirik, amma gözləyirdik.

Hər ürəyin öz diləyi vardı, subaylar evlilik həvəsilə, evlilər övlad həsrətiylə, əsir torpaqlarımız azad olacağı, məcburi köçkünlərimiz isə üstündən bu yükü atacağı və nəhayət 30 il qübarla xatırladıqları el-obalarına dönəcəkləri günü gözləyirdi. Hamı bəlkə heç özü də bilmədən bu sehirli qoşanın cazibəsinə düşmüşdü.

Yeni il gəldi, nə tez nə də gec, elə lap heç kəsi vecinə almadan, öz vaxtında gəlib çıxdı.

Saatın əqrəbləri gecə 12-nin üzərində qoşalaşanda qoşa 20 də özünü yetirdi bizə. Belində torbası Şaxta Baba da ənənəvi hədiyyələrilə uşaqları sevindirə bildi. Köhnə ili nostalji duyğularla yola salıb sarıldıq 2020-nin boynuna...

Bu yerdə "Qaynana" filmində Afətin gəlişinə sevinən Cənnət xala düşdü, ovcunda olanın qədrini bilməyən, bəyxan nəslindən olan gəlinin özü bir yana cehizinin havasına uçaraq bundan sonra rahat və xoşbəxt bir yaşama qovuşacağını güman edən adam peşmanlığın pik həddini yaşamalı olmuşdu...

Gələr-gəlməz ayağı ağır adamlar kimi indiyəcən açıb bitirə bilmədiyimiz düyünlər toplusu da gətirdi, indi artıq bir ildir ki, ucu itmiş yun yumağına ha çözürük, çözülmür. İlk qapımızı döyən uzaq Çindən gələn üzlü qonaq oldu-Korona!

Əvvəl zarafat hesab etdiyimiz, adına yüz şəbədə qoşduğumuz, kiminsə icadı, yalanı saydığımız qonaq indi qovuruq da getmir. Biz onu zarafat saydıqca, onun zarafatı daha sərt oldu, aramızdan neçə-neçə gərəkli adamlarımızı çalıb apardı və aparır! Ölümü adiləşdirdi, ağrıları tək çəkməyi, itkilərimizə tək dözməyi öyrətdi bizə.

Artıq korona qaydaları ilə yaşamağı da öyrənmişik, dözürük, təki bu xəstəliyin sonuna varaq...

***Yaman yerdə axşamladıq, qardaş,***
***Bundan o yana yol da olmayacaq..***
***Doğrudanmı ürəyində Əli xofu,***
***Bir Allah bəndəsi tapılmayacaq!?...***

*...Ehey, insan oğlu, ümidini qoru,*
*Zülmətdən işığa çıxa bilərsən.*
*Möcüzə olmasa da, qəm yemə heç,*
*Sinənə basıb ovuna bilərsən.*

Bəd tərəfini dedim, gərək xoş olan üzündən də danışam axı, yoxsa haqsızlıq edərəm. Bu qoşa iyirminin ayağı torpaqlarımıza düşərli oldu, uzun illərin qalın ayrılıq buzlarını bir həmləyə vurub sındırdı.

Ordumuz Ali Baş Komandan İlham Əliyevin əmrilə tarixi bir savaşa qalxdı. İllərlə hərtərəfli inkişaf etmiş və möhkəmləndirilmiş Azərbaycan ordusu qələbə yazdı. Əsgərlərimizin ayaq səsindən beli dikəldi yurd yerlərimizin, eyni açıldı doğma torpaqlarımızın, üzü güldü bulaqların!

Qarabağ azadlığa qovuşdu, qırx dörd günlük müharibə Azərbaycan xalqının qələbəsilə başa çatdı, köçkünlərin adının üstündən utanc yeri silindi, insanlar sabaha daha inamla baxmağa başladılar. Doğrudur, qələbə asan başa gəlmədi, 2783 şəhid verən Azərbaycan bu gün də gizlənib qalan və arxadan zərbə vurmağı özünə peşə edən erməni terrorçuları ilə mübarizəni davam etdirir və bu da itkisiz ötüşmür.

Azərbaycanın qalib əsgəri yenə öz postunda ayıq-sayıqdır, o, qazandığı qələbənin qədir-qiymətini yaxşı bilir və ölər, azadlığını əlindən buraxmaz!.. Bəli, hər şəhid bir çalınmayan toy deməkdir, darmadağın olmuş arzular, ümidlər deməkdir, gözü yolda qalan ata, ana, övlad, gəlin, sevgili deməkdir...

Doğulmayan körpə, boğazda qırılan ata kəlməsidir və bu minlərlə oxşar tale yazısıdır. Dözülməsi çətindir, amma dözürük.

Sabahın türkün olacağını bildiyimiz üçün vuruşuruq, azadlığın doğuş sancısı olmadan doğulmadığını bildiyimiz üçün döyüşürük. Elə bu yurdsuz-yuvasız millətin özü kimi havadarlarını da qorxuya salan bu fobiya deyilmi!?.. Amma bu da bitəcək, ölməkdə olan, çürüməkdə olan bir ideya sahibini də özü ilə götürüb cəhənnəmə aparacaq...

***Güllə başından dəyib,***
***Gətir öpüm, sağalsın.***
***Sonra bir damcı qandan,***
***Neçə igid göyərsin!***

***...Əllərinlə dağılsın,***
***Zülmün, sitəmin evi.***
***Sən ey alib ordunun,***
***Yenilməyən əsgəri!***

**Qoşa iyirmi-2020-ci il iki fərqli sima ilə yolun sonuna yaxınlaşır, lap az qalıb, lap az... Qələbəmizə ürəkdən sevinək, koronadan qorunaq, bir olaq, birlikdə olaq, həmrəy olaq və yeni ilə xoş ümidlərlə geçək.**

# Onlar Vətən üçün vuruşur

## Böyük qələbəmizdə pay sahibi olanlardan biri də cəsur döyüşçü Nadir Cəfərovdur



**Rəşadətli Azərbaycan ordusu düşmən üzərində qələbə qazanaraq tarix yazdı. Kənd və qəsəbələrimiz, şəhərlərimiz, strateji yüksəkliklər erməni işğalçılarından təmizləndi. Xalqımızın 30 il gözlədiyi bu Zəfəri bizə igid əsgər və zabitlərimiz yaşatdı. Bu möhtəşəm qələbə onların qanı, canı bahasına başa gəldi, şəhidlik zirvəsinə ucalanlar da oldu, qazi olanlar da. Əyninə hərbi formanı geyinib döyüş tapşırığını şərəflə yerinə yetirən hər bir övladımızın qazanılan Zəfərdə öz payı var.**

Belə bir cəsur döyüşçülərdən biri də 44 günlük Vətən müharibəsinin yekununda sinəsini iki medal bəzəyən sıravi əsgər Nadir Cəfərovdur.

### *"Rəşadın intiqamını düşmənlərdən aldıq"*

Nadir Əlihüseyn oğlu Cəfərov 2000-ci il noyabrın 18-də Quba şəhərində anadan olub. 2016-cı ildə Bakı Humanitar Kollecin musiqi nəzəriyyəsi şöbəsinə qəbul edilib və bu il tədris ocağını əla qiymətlərlə başa vurub.

***2020-ci ilin iyulunda hərbi xidmətə çağırılan Nadir Cəfərov Ağcabədidəki N saylı hərbi hissədə qulluğa başlayıb, qısa bir zamanda bacarıqlı, nümunəvi əsgər kimi diqqət çəkib.***



***Torpaqlarımızın azadlığı uğrunda başlayan Vətən müharibəsinin ilk günlərindən sıravi əsgər Nadir Cəfərov hərbi əməliyyatlarda fəal iştirak edib. Erməni işğalçılarına qarşı döyüşlərdə şəhidlik zirvəsinə ucalan bibisi oğlu, polkovnik-leytenant, "Canavar" ləqəbi ilə tanınan Rəşad Quliyevlə çiyin-çiyinə vuruşub: "Hər bir əsgərin borcu Vətənini göz bəbəyi kimi qorumaqdır. Mən də bütün döyüşçü yoldaşlarım kimi düşməni doğma torpaqlarımızdan çıxarmaq üçün vuruşur, komandirlərimizin əmrlərini yerinə yetirirdik. Azərbaycan Ordusu bir daha sübut etdi ki, heç bir işğalçı qüvvə onun gücü qarşısında dayana bilməz.***

Fəxr edirəm ki, xalqımızın qazandığı bu tarixi qələbədə bir əsgər kimi kiçik də olsa payım var. Çox istəyirdim ki, Zəfər paradında bibim oğlu, polkovnik-leytenant Rəşad Quliyev də addımlasın, amma o bu günü görə bilmədi, Rəşad Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Biz Rəşadın və bütün şəhid silahdaşlarımızın intiqamını aldıq". Yenilməz Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatı çərçivəsində apardığı döyüşlərdə göstərdiyi igidliyə və şücaətə görə Nadir Əlihüseyn oğlu Cəfərov Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

### *"Atəş səslərini musiqi sədası əvəz etsin"*

Bu gün əldə silah Vətən uğrunda vuruşan Nadir Cəfərov həm də istedadlı qarmon ifaçısıdır. Onda musiqiyə marağı mərhum babası oyadıb: "Babam Nadir Cəfərov bölgəmizdə gözəl kamança ifaçısı və pedaqoq kimi tanınırdı. Azərbaycanın görkəmli incəsənət xadimləri evimizdə tez-tez qonaq olurdular, onların söhbətlərinə qulaq asırdım. Belə bir mühitdə böyüdüyümdən lap kiçik yaşlarımdan məndə musiqiyə maraq oyandı. Amma kamançanı yox, qarmonu seçdim, atamın sənətini davam etdirmək istədim. Atam Əlihüseyn mahir qarmon ifaçısı kimi həm Azərbaycanda, həm də xarici ölkələrdə keçirilən tədbirlərdə, konsertlərdə tez-tez iştirak edir, müxtəlif telekanallara dəvət edilir. Valideyn və ilk müəllimim olaraq atam mənə hər zaman dəstək olur, məsləhətlərini verir".

Vətən müharibəsində şücaət göstərən əsgər Nadir Cəfərovun indi bir arzusu var-hərbi xidməti başa vurub sağ-salamat valideynlərinin, doğmalarının yanına qayıtmaq, düşmənə güllə yağdıran barmaqları ilə sevimli qarmonunu dilləndirmək:

"Allaha şükürlər olsun ki, Vətənimizi erməni işğalından azad etdik, qüdrətli Azərbaycanın haqq işi qələbəmizlə başa çatdı. Əsgər və zabitlərimiz saq-salamat doğmalarına qovuşsunlar. Qarabağda və ölkəmizin hər guşəsində bundan sonra qoy atəş səslərini musiqi sədaları əvəz etsin".

**Biz də sənin arzuna qoşuluruq, igid əsgər!**

**Etibar CƏBRAYILOĞLU**

# Xeyirxah insanlıq yolu

**Xeyirxahlıq həm də yaxşılıqdır, mayası insana məhəbbətlə yoğrulmuş humanizmdir, nəciblik, mərhəmət, şəfqət və alicənablıqdır. Məhz bütün bu mənəvi dəyərləri özündə birləşdirməyi bacarmış şəxs Tanrının dərgahında kamil insan sayıla bilər. Xeyirxahlıq barədə dünya mütəfəkkirlərinin çox qiymətli fikirləri var.Yunan filasofu Aristotel deyib: "Həyatın mənası nədən ibarətdir? Başqalarına xidmət və yaxşılıq etməkdən."**

Dünya söhrətli şair və mütəfəkkir Nizami Gəncəvi yaxşılığı insanlıq sənəti adlandırıb. Həzrət Əlidən (ə.s.) də bir iqtibas gətirmək yerinə düşərdi: - Dörd şeydən ikisini yadda saxlayın, ikisini unudun- deyib ələyhüssəlam. - Sizə olunan yaxşılığı unutmayın, etdiyiniz yaxşılığı yaddan çıxarın. Sizə olunmuş pisliyi unudun, etdiyinizi yaddan çıxarmayın."

Xeyirxah olmaq üçün insan ilk növbədə mənən zəngin, böyük ürək sahibi olmalıdır. Elədiyi yaxşılığı ögey-doğmalıq qoymadan, təmənna-minnət gözləmədən Allah rizasına etməlidir. Bu, hər bəndəyə qismət olan nemət deyil. Amma həyatda belə insanlar da az deyil. Həmidov Tahir Sabir oğlunu yaxından tanıyanlar onun məhz belə insanlardan olduğunu söyləyir.



Bu günlərdə 65 yaşa qədəm qoyan Tahir müəllim ziyalı ailəsində anadan olub. İnsaat Mühəndisliyi üzrə ali məktəbi uğurla başa vurub. Millətə, ailəsinə xeyirli, tərbiyəli, dürüst iki övlad böyüdüb- yetişdirib. Oğlu Emin Texniki Universtetin, Samir isə Memarlıq və İnşaat Universtetinin məzunudur. Tahir kişinin ən sevdiyi məşğuliyyət kömək üçün müraciət edənlərə əl tutmaq, qohum-qonşunun problemlərinin həllinə yardımçı olmaqdır. Onun xeyirxahlıq etdiyi adamlar arasında heç tanımadığı, və ya ilk dəfə gördüyü adamlar da az deyil. Yüksək insanı dəyərləri öz xarakterində cəmləmiş bu xeyirxah insanın ömür-gün yoldaşı da özünə yaraşan, sadə və meriban xanımdır. Görüb-götürmüş, ziyalı bir ailədə dünyaya göz açmış Rafizə Nadir qızı da uzun illər yoldaşının xidmətində sədaqətlə durub, həyat yollarında ən böyük yardımçısı, sirdaşı olub. Öz növbəsində Tahir müəllim də hər zaman ailəsinə, övladlarına vaxt ayırıb, diqqət və qayğısını onlardan əsirgəməyib. Belə gözəl ailələr cəmiyyətimiz üçün əsi örnəkdir.

**Tahir müəllimi yubileyi münasibəti ilə həyat yoldaşı Rafizə xanım, oğulları Emin və Samir, gəlinləri Mətanət və Aysel, nəvələri İlahə, Ilkin, Nübar, Aysu, Rəvan, Rafiq Nadir oğlu, Tahir, Xosrov Zülfüqaroğlu, Asya Zülfüqarqızı, Firidun və digər yaxınları ürəkdən təbrik edir, ona sağlam və uzun ömür, firavan və səadət dolu bir həyat arzu edirlər. Bu təbrikə biz də qoşuluruq.**

**Hüsniyyə Əlizadə**

# Oxucunun yeni dostu

**Söhbət folklore tədqiqatçısı-həkim Firəngiz Rüstəmovanın "Folk və ya xalq təbabəti" kitabından gedir.**

Xalq təbabəti-türkəçarələr qədim zamanlardan Azərbaycanda geniş yayılmışdır. Tarixən bir sıra xəstəliklərin sağalmasında türkəçarələrdən istifadə olunmuşdur. Diksinmə, soyuqdan və istidən əmələ gələn, həmçinin umsunma, çilləbasma, bədnəzər və bədxah ruhların təsirindən yaranan xəstəlikləri türkəçarələrlə müalicə edirdilər. Müalicənin effekti türkəçarəçinin təcrübəsindən, dünyagörüşündən və məntiqi mühakiməsindən çox asılı idi. Ovsun, şamançılıq, cadu, rəng və saylarla müalicə, ara həkimliyi, mamaçalıq, çöpçülük, sınıqçılıq, dəlləklik, tikətökmə, təbii dərman vasitələri ilə müalicə üsulları və s. türkəçarəçiliyin əsas xsusiyyətlərindəndir.

Tanınmış həkim, folklor tədqiqatçısı Firəngiz Rüstəmovanın yeni çapdan çıxmış "Folk və ya xalq təbabəti" kitabı türkəçarəçiliyin Azərbaycan folklorunda təcəssümündən, müalicə üçün sözün, səsin magik gücündən, musiqinin insanın ruhuna təsirindən, pirlərin, ziyarətgahların müalicə mənbəyi kimi rolundan və s. bəhs edir. Kitabın mündəricatına diqqət yetirməklə bu əsərin araşdırma əhatəsinin genişliyini nəzərdə canlandırmaq mümkündür.

"Folk və ya xalq təbabəti dastanlarda", "Folk və ya xalq təbabəti bayatılarda, nağıllarda", "Qeyri-ənənvi müalicə üsulları", "Azərbaycanda yayılmış alternativ müalicə üsulları", "Sularla müalicə üsulları", "Naftalan nefti və palçıq gölləri", "Litoterapiya və ya daşlarla müalicə", "Müalicəvi massaj""Aeroterapiya"- hər birisi konkret müalicə sahəsini əhatə edir.




Kitabın bütün bölmələrində müəllifin dünya xalqlarının folklor örnəklərini araşdıraraq Azərbaycan folkloru nümunələri ilə müqayisələr aparması və konkret məntiqi nəticəyə gəlməsi bu əsərin sambalını daha da artırır.

Müəllifin qənaəti belədir ki, təbiətdə olan suyun, havanın, torpağın, mineralların, bitkilərin və digər material aləmin bir şəfa mənbəyi olması əcdadlarımız məlum idi. Həmin empirik bilgilər nağıllarla, əfsanələrlə, el-ağız ədəbiyyatı, atalar sözləri kimi folklor nümunələri ilə nəsildən-nəslə ötürülməklə, qədim əlyazmalar, papiruslar və müxtəlif mənbələr vasitəsi ilə günümüzə qədər gəlib çatmışdır. Bir sıra müalicə üsulları isə farmakoterapiyada da tibbin digər sahələrində öz əksini tapmaqdadır.

Həkim-folklor tədqiqatçısı F.Rüstəmzadə ölkəmizdə xalq təbabəti ilə məşğul olmağın qanunla nizamlanmasını alqışlayır və qeyd edir ki, bu qanun özəl tibb fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini, bu fəaliyyətin təşkilati-hüquqi əsaslarını müəyyən edir. Xalq təbabəti bütün dünya xalqları arasında xəstəliklər, onların müalicə üsulları və vasitələri haqqında biliklərinyayılması, daim yaşayan, davamlı olaraq təkmilləşən, qeyri-ənənəvi, təbii yollarla müalicə formasıdır. Xalq və ya folk təbabətinə etnotəbabət, alternativ və ya əlavə müalicə üsulu da deyilir.

Xalq təbabətinin səhiyyə sistemində vacib məsələ olsa da, sona qədər dəyərləndirirməməsi isə müəllifi narahat edən amillərdən biridir.Müəllif qeyd edir ki, xalq təbabəti yanaşı (əlavə) və ya alternativ tibb müxtəlif dünya ölkələrinin ənənələrində, məişətində geniş şəkildə istifadə edilsə də, əsas tibbi-sanitar yardıma daxil edilməmişdir və yalnız xalq təbabəti termini altında istifadə edilir. Müəllifin fikrincə xalq təbabəti bütün dünya ölkələri, xüsusilə inkişaf etməkdə olan ölkələrin xalqları arasında daha geniş yayılmışdır. Xalq təbabəti sağlamlığın qorunmasında, xəstəliklərin, əsasən də xroniki xəstəliklərin müalicə və profilaktikasında çox qədim bir tarixə malikdir.

**Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabın (bu kitab həm də bu sahə ilə məşğul olan hər hansı bir tədqiqatçının istifadə obyekti ola bilər) məziyyətləri haqqında çox danışmadan onu həssas oxucularımızın ixtiyarına buraxırıq. Elə isə sağlamlığının qeydinə qalan oxucular, bu kitabı oxuyun və məntiqi nəticəyə gəlin. Bu kitabı oxumaqla siz yeni bir dost qazanmış olcaqsınız.**

**Faiq Şükürbəyli,**
**filologiya üzrə fəlsəfə doktoru**



*Ülkər NİCATLI*

## *QƏLƏBƏ KÖYNƏKLİ AĞDAM*

***Müqəddəslik yatır hər qarışında,***
***Övliya nuru var adi daşında.***
***Tanrı işığısan yurd yaddaşında,***
***Belini qırmısan fələyin, Ağdam.***

***Gördüm yağı bağrın yaranlarını,***
***Vüsala qovuşan yar anlarını.***
***Köksünü üşüdən yaralarını,***
***Vətən oğulları bələyib, Ağdam.***

***Yollar misra-misra açıb sinəsin,***
***Sözləri kövrəlib Qulu Ağsəsin.***
***Zəfər torpağına sərib nəfəsin,***
***Arzusu çin olmuş ürəyin, Ağdam.***

***Bitib yaxasında qönçə ürəyin***
***Neçə ürəklərdən keçən ürəyin.***
***Ruhuna sərilib neçə ürəyin***
***Bu zəfər ətirli diləyin, Ağdam.***

***Torpaqda buğlanır şəhid nərəsi,***
***Bax, Aqil Abbasın coşub həvəsi,***
***Məzarda kövrəlib Qədirin səsi,***
***Gəl, ovut bu qəlbi kövrəyi, Ağdam.***

***Torpağın bələnib şəhid ətrinə,***
***Daha dəyə bilməz kimsə xətrinə.***
***Şükür alnındakı Tanrı sətrinə,***
***Geymisən qələbə köynəyi, Ağdam.***

***30.11.2020***



*İbrahim Yusifoğlu*

## *Ölümü Tanrıdan gələn qardaşım*

**(Şəhid məzarı üstündə oxunan seir)**

**Zəfər günlərini yaşayır Vətən,**
**Sevinc içindədir torpağım, daşım.**
**Elin ağır günü, qeyrət dəmində,**
**Ölümü Tanrıdan gələn qardaşım!**

**Ölümü Tanrıdan gələn qardaşım,**
**Dözmədin dözülməz haqsızlıqlara.**
**Canından keçsən də torpaq vermədin,**
**Şərəfin itirmiş çaqqal "yan"lara.**

**Qardadaşım, həddini düşmən aşanda,**
**Özgənin kütüylə quduzlaşanda,**
**Tale də üzünü göyə döndərir,**
**Döyüş meydanına elə o anda**
**Kərbəla düzündən, Bəzz qalasından,**
**Tanrı ən müqəddəs ölüm göndərir.**

**Qəbrin nurla dolsun, işıqla dolsun,**
**Müqəddəs ölümə çatan qardaşım.**
**Əbədi mənzilin behiştlik olsun,**
**Torpağın qoynunda yatan qardaşım.**
**...Elin ağır günü, qeyrət dəmində,**
**Ölümü Tanrıdan gələn qardaşım!**

# "Əsas hədəf məşhur simalar olur" - "Deep fake" və "fake xəbər"



**İlk olaraq ""Fake news" nədir?" bu suala cavab verək. O, dilimizə tərcümədə "saxta xəbər" mənasını verən tez-tez qarşılaşdığımız bir haldır. Bu cür xəbərlər jurnalistikada qəsdən yaradılmış yalan informasiyalardır. Ki, bu məlumatlar vasitəsilə sarı media orqanları öz saytlarına çoxlu istifadəçilər cəlb edirlər.**

"Fake" məlumatlar bu gün ciddi sosial bəladır. "Fake"lərin yayılması, saxta xəbərlərin ifşa olunması, onlara qarşı mübarizə yolları müxtəlifdir. Təbii ki, burada "fake"lərin mahiyyəti xüsusi əhəmiyyət kəsb edir. Yayılan saxta məlumatlar fotodurmu, mətndirmi, yoxsa videodurmu? Məhz bu bölgü əsasında da "fake"lərlə mübarizə aparılır. "Fake xəbər"lərin qarşısı necə alınmalıdır? Hazırda bu sual dünyanın aparıcı dövlətlərini düşündürür.

### *"Fake xəbər"lər iki cür yaranır:*

***daxili və xarici təsirlərin vasitəsilə. Daxili təsirlərin vasitəsilə yaranan "fake xəbər"ləri nümunə ilə izah edək. Bilirik ki, Azərbaycan 44 gün Vətən Müharibəsi apardı. Məhz həmin ərəfədə Şuşanın, Laçının və digər ərazilərimizin alınması ilə bağlı "fake" xəbərlər demək olar ki, tez-tez yayımlanırdı. Bəs bu "fake" xəbərlər nədən qaynaqlanırdı? Hər hansısa bir şəxs qohumundan, ətrafından aldığı məlumatı təhrif olunmuş şəkildə sosial şəbəkədə yayımlayırdı. Bu isə saxta məlumatların formalaşmasına gətirib çıxarırdı. Ona görə də, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi əhalini yalnız rəsmi məlumatlara inanmağa çağırırdı. "Fake xəbər"lərin yayılmasının qarşısını almaq məqsədilə ölkəmizdə hətta internetə giriş-çıxışın məhdudlaşdırılmasına dair göstəriş də verildi. Bax bu təqdirəlayiq bir addım idi. Ki, müharibə şəraitində saxta məlumatlarla mübarizə üçün ölkəmiz ən alternativ üsuldan istifadə etdi.***

İndi isə kənar təsirlərin vasitəsilə yaranan "fake xəbər"lərdən danışaq. Məsələn, müharibə dönəmində düşmən tərəf propaqanda üçün Azərbaycan profilləri ilə bizim sosial mediaya müdaxilə etməyə çalışırdı. Gəncə hadisələri zamanı Suriyada dağıntılar altında qalan bir uşağın fotosu sosial şəbəkələrdə yayıldı və bu foto elə təqdim olundu ki, sanki həmin hadisə Gəncədə olub. Məsələnin mahiyyəti nədən ibarət idi? Ermənilər həmin fotonu Azərbaycan adına qələmə verməklə və sonradan həmin fotonu Suriyada baş vermiş hadisə ilə əlaqələndirməyə çalışdılar ki, guya azərbaycanlılar Suriyadakı hadisəni Azərbaycanda olmuş kimi yayımlayırlar. Bu kimi hallara yol verilməməsi üçün nə edildi? Dövlət rəsmiləri hər dəfə çıxışlarında insanları rəsmi medianın və rəsmi dövlət qurumlarının yayımladığı məlumatlara istinad etməyə çağırdılar. Media məlumatları dedikdə biz təkcə xəbərləri nəzərdə tutmuruq, buraya fotolar, eləcə də videolar daxildir. "Fake xəbər"lərlə mübarizə üçün hətta müharibə dövründə portal da yaradıldı. Belə ki, kütləvi şikayətin təmin olunması məqsədilə yaradılan www.fake.az internet portalında istifadəçilər sayta qeydiyyatsız daxil olaraq şikayət olunan - saxta xəbərlər tirajlayan hesabların linkini bazaya əlavə edirdilər. Həmçinin, bazaya daxil edilmiş linklər vasitəsilə aidiyyəti üzrə facebook, telegram, apple, google və s. şikayət etmək və bazaya daxil edilmiş şikayətlərin səbəbləri ilə tanış olmaq da mümkün idi.

### *"Fake xəbər"lər bütün dövlətlər*

***və və cəmiyyətlər üçün ciddi təhlükədir. Bu xəbərlərin qloballaşması, onlardan siyasi kampaniyalar, kommersiya məqsədilə istifadə böyük çaşqınlıqlara səbəb olur. Ona görə də, "fake xəbər"lərlə mübarizə çox vacibdir. Məhz bu cür xəbərlərin yayılmasının qarşısını almaq üçün KİV-lər, informasiya agentlikləri sıx birləşməli, birgə mübarizəni gücləndirməlidirlər.***

"Fake" məlumatlar bu gün tez bir zamanda ictimaiyyətə çatdırılır. Hətta bəzən bu cür informasiyalar dəqiq xəbərləri də ötüb keçir. Bu cür hallara yol verilməməsi üçün jurnalistlər informasiyanı təkrar-təkrar yoxlamalı, məlumatı dəqiqləşdirməlidirlər. KİV-in başlıca məqsədi insanları dəqiq informasiya ilə təmin etməkdən ibarətdir. Bu mənada deyə bilərik ki, dəqiqlik operativlikdən də öndə gəlməlidir.

***"Fake" məlumatlardan danışarkən "deep fake" anlayışına da toxunmaq lazımdır. Son dövrlərin ən təhlükəli bəlasına çevrilən "Deep fake" nədir, bunu izah edək. Hər hansısa bir şəxsin sosial şəbəkə üzərində yayımlanmış fotoları toplanılır, daha sonra süni intellektdən istifadə edilməklə onun alqoritmi qurulur. Jest, mimika, hətta səs belə təqlid ediləcək şəxslə eyniləşdirilir. "Deep fake" videolar o qədər professional hazırlanır ki, onları orijinaldan ayırmaq belə çətindir. Bu cür videolarda əsas hədəf məşhur simalar olur. Zaman-zaman etibarilə Emma Uatson, İvanka Trump, Natali Portman, Mişel Obama və bir neçə məşhur sima "deep fake"in qurbanı olmuşlar.***

İnkişaf edən texnologiya ilə artıq saxta və gerçək məlumatlar bir-birindən fərqləndirilməyəcək bir hala gəlib. Süni intellekt bu gün qarşısı alınmaz dərəcədə təkmilləşib.

Bir səs və video ilə olduqca rahat manipulyasiyalar etmək olduqca rahatlaşıb ki, bunun isə ən bariz nümunəsi "deep fake"dir. Hər hansı bir videonun saxta olduğunu aşkara çıxarana qədər onun törətdiyi problemlər həddən çox olur. 2018-ci ilin aprel ayında Jordan Pil "deep fake" vasitəsilə Barak Obamanın saxta videomüraciətini yaratdı. Barak Obamanın həmin çıxışdakı fikirləri belə idi: "Hər kəsin hər an söyləmədiyi sözləri düşmənlər vasitəsilə guya səsləndirdiyi bir dövrə qədəm qoymuşuq. Məsələn, bu videoda mənə "qatil haqlı idi" və ya "Ben Carson bataqlıqdadır" kimi şeyləri söylədirlər. Mən bunları heç vaxt deməzdim. Lakin Jordan Pil kimi birisi bunu istəyir və mənə dedizdirir. Ona görə söyləyirəm ki, təhlükəli bir zamandayıq. Etibarlı xəbər mənbələrinə inanmalı, onlara istinad etməliyik". Jordan Pil hazırladığı bu video vasitəsilə "deep fake"in nə qədər təhlükəli olduğunu diqqətə çatdırır və insanları bu videolarla mübarizədə ən əsası rəsmi mənbələrə inanmağa çağırır. "Deep fake" videoların yaratdığı təhlükə ilə bağlı qanunlar artıq müzakirə edilməyə başlayıb. Ötən il Kaliforniyada qəbul edilmiş iki qanun "deep fake"dən istifadəni qadağan edir. Bəs bu kifayətdirmi? Əlbəttə ki, xeyr. Ona görə də biz özümüz "deep fake" barəsində ətrafımızdakıları məlumatlandırmalı, gerçək videolarla "deep fake"in fərqini ayırd etməyi bacarmalıyıq. "Deep fake" videolarda bir kadrdan digərinə keçid zamanı işıq effekti, dəri rəngi dəyişir, dodaq hərəkətləri nitqə uyğun gəlmir.

Bu məqamlara diqqət etməklə videonun saxta olduğunu asan ayırd edə bilərik.

### *"Deep fake"lə mübarizədə,*

yəni videonun saxtakarlığının aşkar edilməsində xüsusi proqramlar da əhəmiyyət kəsb edir. Həmin proqramlar vasitəsilə videoların "fake" olub-olmadığı aşkar edilir. "Deep fake"lə mübarizənin digər bir yolu isə üz tanıma proqramlarıdır ki, məhz bu proqramlar "deep fake" elementlərini zəiflədir və videoların saxta olduğunu aşkara çıxardır.

**Onu da qeyd edək ki, informasiya texnologiyaları inkişaf etdikcə "deep fake"lə mübarizə də çətinləşir. Belə ki, onu gerçək videolardan fərqləndirmək üçün daha kibertəhlükəsizlik proqramlarına ehtiyac yaranır. Ümumiyyətlə, bu gün şəxsi məlumatları kiber təhdidlərdən qorumaq üçün "Total Security" kimi bir paketdən istifadə vacibdir.**

**Rövşən Tahir**



*Dəmir Çeşməli*

## *Biləm nədi*

**Ağrıdım ağrının sızıltısından,
Yarasını tapdım ki biləm nədi.
Xanimanım qaldı xarabalıqda,
Yapdığımı yapdım ki biləm nədi.**

**Yaxalayıb yaxa çəkdilər önə,
Kəməndə saldılar düşdüm kəminə.
Hövsələm yetmədi yetəm himinə,
Köhlənimi çapdım ki biləm nədi.**

**Yığılmadı yığım yerim əzəldən,
Başa keçdi dərdim sərim əzəldən,
Tapılmadı sənnən birim əzəldən,
Tapdığımdan qopdum ki biləm nədi.**

**Əzizlədim əziz bildim özünü,
Yəqin özü deyər olan üzünü.
Əı çəkdi anladım vida sözünü,
Baxışından öpdüm ki biləm nədi.**

**Gözümdən yayınmır gəlişi gözəl,
Gülüşü gözündə gülüşü gözəl,
Əlləri əlimdə əl işi gözəl,
Hədəfindən sapdım ki biləm nədi.**

**Gələni gəlmişdi gəlməmiş kimi,
Dərdimi bilmişdi bilməmiş kimi,
Elə öldürmüşdü ölməmiş kimi,
Ürəyinə hopdum ki biləm nədi.**

## *Desin*

**Üzümü üzünə tutub,
Üzümü dedim ki dedi.
Bir baxımla qaşın çatıb,
Düzümü dedim ki dedi.**

**Vədəsində vəd əridi,
Yerişində yer yeridi.
Ürəkdə susdu kiridi,
Sözümü dedim ki dedi.**

**Ayrılığın yeli gəldi,
Əldə kürək əli gəldi,
Əli gəldi,Vəli gəldi,
Özümü dedim ki dedi.**

## *O dağlarda*

**Xəyallarım mürgüləyir,
Odağlarda,odağlarda.
Ov ovlayır ovum hələ,
Odağlarda,odağlarda.**

**Duman çöküb acıq verir,
Açıq saçıq qıcıq verir,
Hər gələnə qucaq verir,
O dağlarda,o dağlarda.**

**Üfürür küləklər əsir,
Arzuda diləklər əsir.
Könlümdə nmələklər əsir,
O dağlarda, odağlarda.**

**Uzanıbdı uzaqdakı,
Buzlayıbdı sazaqdakı.
Məni gözlər Azıqdakı,
O dağlarda,odağlarda.**

**Yol salıb iz istəmişəm,
İzindən söz istəmişəm,
Eşq adlı qız istəmişəm,
O dağlarda,odağlarda.**




**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**


# "YERİYƏN NAXÇIVAN - HÜSEYN HƏŞİMLİ.

**Hüseyn Həşimli vəfat etdi. Nə qədər desəm ki, yox, mən buna inanmıram, amma gerçəkdir bu. Onun ölümündən yazılan məqalələr, vida sözləri də yalan deyil, gerçəkdir. Kaş Naxçıvana gedə biləydim və onun məzarı başında diz çöküb deyəydim ki, ay Hüseyn, sapsağlam bir kişi idin, sənə nə oldu? Əlli beş yaşında da bu qədər qıvraq, işgüzar, mən bildiyimə görə xəstəliyi yaxına buraxmayan bir insan bu dünyaynan vidalaşarmı? Amma biz dost olsaq da, bilmədiyim çox şeylər var. Hər halda, bir-birimizdən çox uzaqlarda yaşasaq da, hərdən telefonda hal-əhval tutsaq da, məncə, gizlinliyimiz yox idi.O, mənim xəstələndiyimi, bir neçə dəfə əməliyyat olunduğumu bilirdi, amma mən onun haqqında, yəni doğrudan da xəstə olub-olmamasından xəbərsiz idim. Sonra eşitdim ki, Hüseyn ürək ağrısından əziyyət çəkirmiş.**

İlk dəfə onu Naxçıvana birincisəfərimdə (1984)görmüşəm. Onda Hüseyn tələbə idi. Naxçıvan pedoqoji institutunun Azərbaysan dili və Ədəbiyyat fakültəsinin üçüncü kursunda oxuyurdu. Məni tələbələrin səviyyəsi ilə tanış olmağa və onları düşündürən suallara cavab vermək üçün bir saatlığa o kursa "ezam" etdilər. Müasir ədəbi tənqidimiz barədə otuz dəqiqə "mühazirə" oxudum, sonra suallar yağışı yağdı üstümə və bu sualların əksəriyyətini hələ tanımadığım, heç adını da bilmədiyim Hüseyn Həşimli verirdi. Onda hiss elədim ki, bu oğlan müasir ədəbiyyatla bağlı hər şeyi bilir. Auditoriyadan çıxanda onun əlini sıxdım, adını soruşdum,"sənin gələcəyin var" dedim. Hüseyn ali məktəbi bitirdi və onu elə institutda da saxladılar. Baş laboratılqdan institutun prolrektoru vəzifəsinə qədər böyük bir yol keçdi Hüseyn. (son bir ildə isə EA-nın Naxçıvan bölməstində direktor müaviniydi) .Onun tələbələri öz xatirələrində Hüseynin necə bir müəllim olduğunu xatırlayırlar- Hüseyn müəllimi onlar qədim yunan natiqi Demosfenə bənzədirlər. Onun çox səlis, olduqca rəvan, axıcı bir nitqi vardı ("fikirlərinin ifadə tərzi, analitik təfəkkürü oxucunu məftun edirdi. Həşimli kimi yazmiağı adama heç bir kəs öyrədə bilməz. Bu, insana verilən bir istedad, Allah vergisidir"- tələbəsi, indisə ədəbiyyatşünas Zülfiyyə İsmayıl). Onun mühazirələri o qədər canlı keçirdi ki, tələbələrə bəzən heç əlavə ədəbiyyat oxumağa ehtiyac qalmırdı.

Hüseyn Həşimlinin iki ustadı olub- İsa Həbibbəyli və Yavuz Axundlu. Hər ikisi institutda onun müəllimləriydi. O, heç vaxt ustadlarına kəm baxmayıb. İsa Həbibbəylinin XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və mətbuatı ilə bağlı bir çox araşdırmaları ədəbi-elmi ictimaiyyətə yaxşı məlumdur, H.Həşimli də əsasən həmin dövrün tədqiqatçısı idi və yeni araşdırmaları ilə bir çox qaranlıq mətləblərə işıq saldı. Qocaman Yavuz müəllim ömrünün son illərində xəstə yatırdı, ona ən çox baş çəkən Hüseyn idi və Yavuz müəllimin şah əsəri olan "Azərbaycan tarixi romanı: mərhələlər, problemlər" monoqrafiyasına sanballı bir giriş sözünün də müəllifi H.Həşimli idi. Yavuz müəllimin də tanıdığı, sevdiyi insanlar haqqında bir kitabı var və o kitabda Hüseyn haqqında da bir oçerk verilib.

Mən Hüseynin alim səciyyəsi barədə qısaca söz açım. O, artıq ustad ədəbiyyatşünasların pleyadasına yaxınlaşırdı. O,M.Cəfər deyildi, Y.Qarayev deyildi, B.Nəbiyev deyildi, İ.Həbibbəyli də deyildi, amma bu ədəbiyyatşünasların heç birinə bənzəməyəbənzəməyə onların mənəvi varisinə çevrilmişdi. Bəzi həmkarlarından fərqli olaraq H.Həşimli yalnız bir ədəbi mərhələnin tədqiqatçısı deyil, həm klassik ədəbiyyatın, həm də müasir ədəbiyyatın araşdırıcısıydı. Onun "İzzəddin Həsənoğlunun ədəbi irsi" monoqrafiyası,"Azərbaycan ədəbiyyatında sentimentalizm" namizədlik dissertasiyası, "Azərbaycan poeziyasında sonet və terset" tədqiqatı elə bilirəm, müasir ədəbiyyatşünaslığın ən son nailiyyətlərindəndir. Xüsusilə, sonuncu tədqiqatı.H.Həşimli Azərbaycan poeziyasında sonet lirik janranın elmi təsbitini sona çatdırdı. Özü də orta əsrlər Avropa poeziyası kontekstində. Bizim ədəbiyyatşünaslıqda belə bir fikir formalaşmışdı ki, Azərbaycan poeziyasında ilk sonetlər sovet dövründə yaranıb (S.Əsədullayev).. İ.Həbibbəyli sübut elədi ki, sonet janrının ilk nümunələri H.Cavid və A.Şaiq yaratmışlar. H.Həşimli bir qədər də arxaya boylanıb Azərbaycan ədəbiyyatına sonetin gəlişini XX əsrin əvvəllərinə apardı. Onun bu tədqiqatı həm nəzəri, həm də praktiki baxımdan çox əhəmiyyətdlir.Yeri gəlmişkən deyim ki, "Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar" onun doktorluq dissertasiyası idi.

***H. Həşimli Türkiyədə də tanınırdı, "Azərbaycan ədəbi mühiti və türk dünyası" və "Türk halklarının edebiyat ilişgilerinə dair araşdırmalar" monoqrafiyaları Türkiyə ı Azərbaycan ədəbi əlaqələrinə dair çox dəyərli mənbələrdir.***

Mən H.Həşimlinin neçə kitabının və onlarla məqaləsinin adını çəkərəm ki, bu tədqiqatlar ilk dəfə məhz H.Həşimlinin qələmindən çıxıb. Buyurun:ədəbiyyatdahaqqında az danışılan şəxsiyyətlər: Səid Səlmasi, Əli Səbri, Fərhad Ağazadə, Məmmədəli Sidqi, Əli Məhzun. Baxın: bu da sanballı tədqiqatlar- "Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri", "Azərbaycan mənsur şeirinin təşəkkülü", "Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı" və s. Hələ mən onun Naxçıvan televiziyasında il boyu müxtəlif mövzularda çıxışlarını demirəm. O, Naxçıvnda yaşayan yazarlar haqqında onlarla məqaləniın müəllifiydi.Onu da qeyd endim ki, H.Həşimlinin bir çox elmi məqalələri birim "Azərbaycan" jurnalında işıq üzü görüb.

Keçən il dekabrda Naxçıvanda ezamiyyətdə idim, təbii ki, dostumla görüşməliydim, amma o iki-üç gündə Hüseyn Həşimlinin yalnız iki dəfə gördüm, Universitetdə Naxçıvan ədəbi mühiti ilə bağlı elmi müşavirədə çıxış elədi, bir də ikicə saat çay süfrəsindəsöhbətləşdik. Professor Hüseyn Həşimli vaxtın əsirinə çevrilmişdi. Bir gündə haralarasa məruzə ya çıxış eləməyə çağırırdılar.

Zarafatla ona dedim ki, Mir Cəlal müəllim Ə.Haqverdiyevə "Yeriyən Azərbaycan" deyib, mən də sənə "Yeriyən Naxçıvan" deyirəm. Çox təəssüflənirəm ki, sağlığında onun bir alim, pedaqoq və ziyalı kimi səciyyəsini açıqldayan bir məqalə yazmamışam.Amma görkəmli alimlərin H.Həşimlinin elmi və pedoqoji fəaliyyəti barədə yazıları az deyil.

Hüseyn Həşimli vəfat etdi. Azərbaycan ədəbiyyatşünaslıq elmi üçün bu, çox ciddi itkidir..

**Naxçıvana gedə bilmədim. Gücüm yalnız göz yaşlarına çatdı.**

# "Gələcəyə ön söz"də Qarabağ hekayətləri

**Müxtəlif televiziya verilişləri və aktual mövzuda şərhləri ilə geniş auditoriyanın rəğbətini qazanmış professor Qulu Məhərrəmli qələmini həm publisistika, həm də elm sahəsində də uğurla sınayaraq, elm və ictimai düşüncə xəzinəmizə bir-birindən qiymətli əsərlər bəxş edir. Yeni il ərəfəsində onun qardaş Türkiyədə "Radio teatr sənəti" kitabının çap olunması xəbərinə biz öz həmkar sevincimizi əsirgəmədik. Həmin ölkənin professoru Aysel Aziz kimi nüfuzlu elm adamlarının bu əsər haqqında söylədikləri yüksək fikirlərin də bizləri məmnun etdiyini gizlətmirik.**

Amma mən Qulu müəllimin başqa kitabı haqqında danışmaq istəyirəm: ötən il "Altunkitab" nəşriyyatında çapdan çıxmış "Gələcəyə ön söz" məqalələr toplusu haqqında. Son aylarda Qarabağ məsələsinin aktuallaşması ilə bağlı bu kitabı tez-tez vərəqləyirəm, çünki kitabdakı yüzə yaxın məqalənin bir xeylisi bu problemə həsr olunub. Təkcə bu məqalələrin adları "ermənilərin öz müqəddəratını təyin etməsi" adı gizlədilmiş məsələnin mahiyyəti haqqında oxucuya çox şeyi deyir: "Qarabağda sivilizasiyalar yox, siyasi maraqlar toqquşur", "Şuşa, Berlin və ... bayram duyğuları", "Qürbət ölkədəki əsgərin ağrıları", "Göz yaşlarında islanan Qarabağ problemi", "Qarabağ danışıqlarında "model" axtarışı", "Krım böhranı Qarabağın sonudurmu?", "Qarabağ problemində beş rayon illüziyası", "Virtual Qarabağ şikəstəsi", "Frau Merkelin bir cümləsi" və s.




Adlarını çəkdiyimiz məqalələrdə Q.Məhərrəmli təkcə problemin mahiyyətindən bəhs edib onun ümumi mənzərəsi yaratmır, həm də yaranməş vəziyyətdən çıxış yolları, o cümlədən məsələnin məğzini dünyaya çatdırmaq məsələlərindən danışır. O göstərir ki, milli mövcudluq və dünyaya qovuşmaq uğrunda kəskinləşən mübarizədə işıqlı dünyaya düşmək üçün biz həmin dünyanın dilində danışmağı bacarmalıyıq. Bunun üçün də demokratiyaya yönəli bilgi və davranışları mənimsəməli, özümüzü təqdim və təbliğ etməyin fərqli texnologiyalarını öyrənməliyik. Son illərdə Xocalı soyqırımı ilə bağlı Rusiya, Avropa və Amerikada "Xocalıya ədalət" şüarı ilə aparılan genişmiqyaslı və uğurlu kampaniya bizi bu barədə daha dərindən düşünməyə vadar edir.

1918-ci ilin martındakı kütləvi qırğınlar, Zəngəzur qətliamları, Qarabağ problemi, Xocalı soyqırımı, Ağdaban, Cəmilli faciələri bizim milli dərdlərimizdir və bunların dünyaya çatdırılması vacibdir. Amma necə?! Kimlərisə söyüb-qarğıyıb ağlamaqlamı? Təbii ki, faciə qurbanlarını yad edib göz yaşları tökmək, insanın dərdini bir anlıq yüngülləşdirir, amma dünyanın ürəyini yumşaltmır. Dünya ağlamağı çoxdan tərgidib, kövrək hisslərin yerini çoxdan hüquqi formullar, hər halda, qanun və məntiq havasına köklənmiş düşüncə tərzi tutub. Üzdə olan bunlardır, alt qatda isə xristian təəssübkeşliyi və siyasi maraqlardır. Biz özümüzdə təpər tapıb Şərq müdrikliyini və doğmaq düşüncə tərzimizi Qərbin işgüzar təfəkkürü və çevik piar texnologiyaları ilə birləşdirməliyik. Lirik məzmunlu fəryad bəyanatları, köhnə ifşa tərzi və duyğusallıq burada keçərli deyil.

Müəllif "Göz yaşlarında islanan Qarabağ problemi" məqaləsində göstərir ki, biz milli problemlərimizi dünyaya çatdırmağın yeni metodlarını hazırlamalıyıq. Bunun üçün çox gec də olsa, ölkədə bu problemləri (Qarabağ, soyqırımlar və s.) əsaslı şəkildə öyrənən xüsusi elmi mərkəzlər yaratmalıyıq. İnternet saytlarında parlaq adlar olsa da, ayrı-ayrı institutlarda problemlərin müxtəlif tərəfləri öyrənilsə də, bu məsələ ilə bağlı vahid informasiya bazamız yoxdur. Problemin təqdimatında vahid sistem, vahid mövqe və təbliğat metodikası da yoxdur. O səbəbdən hər kəs əlinə keçən fakta və ya tarixi epizoda öz "sərbəst" yozumunu verir. Sistem yoxdursa, belə dağınıq elementlərdən danışmağa dəyməz.

Azərbaycan sentyabrın 27-də başlanan 44 günlük əks-hücum əməliyyatları nəticəsində möhtəşəm qələbə qazanaraq öz tarixi torpaqlarını düşmən tapdağından azad edib. Bəs bu Qarabağ savaşına aparan tarixi-siyasi şərait, çətin diplomatik danışıqlar, Aərbaycanın haqq səsinin dünyaya çatdırılması bizim mediamızda, yazılarımızda, publisistikamızda necə işıqlandırılıb? Bu tarix gələcək nəsillərə necə çatdırılır? Professor Qulu Məhərrəmlinin "Gələcəyə ön söz" kitabında zaman-zaman bu suallar barədə də söhbət açılır. Kifayət qədər poetik adı olan kitabda fərqli mövzular işıqlandırılıb, ictimai-siyasi və mənəvi həyatımızın müxtəlif problemlərinə işıq salınıb, o cümlədən media məsələləri və televiziya verilişləri haqqında söz açılıb. Amma mən kitabda Qarabağ problemini, onun ayrı-ayrı çalarlarının ifadəsini gördüm. Ümumiyyətlə, bir jurnalist və siyasi təhlilçi kimi Azərbaycan-Ermənistan problemi Q.Məhərrəmlinin yazılarının və çıxışlarının nüvəsində dayanır. Yazılarında da, teleradio çıxışlarında da həmişə bu mövzunu gündəmdə saxlayıb. Yeri gəlmişkən, vaxtilə AzTV-də rəhbərlik etdiyi "Səhər" proqramında da Qarabağ mövzusuna tez-tez müraciət olunması təsadüfi deyildi.

Müəllif burada "özümüz deyib, özümüz eşidirik" prinsipinə qarşı çıxaraq problemin dünya miqyasına çıxarılmasının müasir metod və üsulları barədə danışır, mövcud təbliğat işindəki nöqsanları tənqid, bu sahədəki yenilikləri də təqdir edir. O göstərir ki, müasir dünya vizual informasiyaya meyillidir. Adiovizuallıq isə zamanın dilidir, ifadə vasitəsidir. "Etiraf etmək çox acıdır, amma bu faktdır ki, milli problemlər kontekstində Azərbaycanın son dövr tarixini əks etdirən yığcam və dolğun sənədli filmlərimiz, demək olar ki, yoxdur. Uzun-uzadı filmlər isə eyni məzmunlu qalın kitablar qədər mənasız və darıxdırıcıdır. Məsələn, iki il əvvəl Xocalı soyqırımının yad edildiyi günlərdə Azərbaycanın 300 mindən çox məktəblisi BMT-yə müraciət ünvanladı. Gecikmiş olsa da, bu addımın mahiyyətində yenilik, ümid və işıq var. Biz hamımız, nağıllarda deyildiyi kimi, bu işığı tutub getməliyik".

**Bəli, indi işığı tutub getmək zamanıdır, öz problemlərimiz haqqında dünya ilə onun anladığı müasir dildə danışmalıyıq. Məsələn, artıq Qarabağda öz tarixi ərazilərini işğaldan azad etmiş Azərbaycan indi Xankəndində rus sülhməramlılarının himayəsi altında separatizmin yeni və daha qorxulu dalğası ilə üzləşib. Biz bu yeni tendensiyanın təkcə ölkəmiz üçün deyil, Avropa və bütün dünya üçün də təhlükə olduğunu beynəlxalq hüququn dili ilə nəql etməliyik, çünki dövlət suverenliyi məsələsi bu gün dünya ölkələrinin əksəriyyəti üçün aktualdır.**

**Əbülfət Mədətoğlu**

# "Qələbə sevinci ilə dolu bir il oldu"

***Geriyə baxanda, 2020-ci ili xatırlayanda çox şey yada düşür. İlin əvvəllərində bütün dünyanı koronavirus öz cənginə aldı, ilin sonlarına doğru isə Ölkəmiz haqq savaşından qalib çıxdı. Elə 2020-ci ildə baş verənlərlə bağlı da məşhurların fikirlərini öyrəndik. Görəsən, bu il onların yaddaşlarında necə qalıb?***



***Təranə Səmədova:*** "Bu il əminəm ki, bütün dünyanın yadından çıxmayacaq. Hər əsrdə bir yaddaqalan xəstəlik, bəla olur. Düşünürəm ki, 21-ci əsrin ən yaddaqalan və sonuncu bəlası da koronavirus olar. Azərbaycan üçünsə bu il ikiqat yaddaqalan bir il oldu. İllərdir, işğal altında olan torpaqlarımız geri qaytarıldı. Bu hər bir azərbaycanlının sevincinə səbəb olacaq bir məqamdır. 2021-dən gözləntilərim həddindən artıq çoxdur. Bu pandemiya başa çatsın, vaksinasiyaların kənar təsirləri olmasın, bəşəriyyət bu bəladan qurtulsun və normal həyatımıza geri dönək. Həsrət qaldıq 2020-də doğmalarımıza. Gözləntilərim bunlardır. Şəxsən özümə qalanda isə düşünürəm ki, 2021 mənə də düşərli olar".

***Afət Fərmanqızı:*** "Bu il həm sevincli oldu, həm də kədərli. Sevincli oldu ki, torpaqlarımız işğaldan azad edildi, kədərli isə Şəhidlərimiz oldu. Allah Şəhidlərimizə rəhmət eləsin. Bilirsiniz ki, 2020-ci ildə bütün dünya koronavirus bəlasından əziyyət çəkdi. Təbii ki, bu şou-biznesə də təsir etdi. Koronavirusa görə sənətdə irəliləyiş olmadı. 2021-ci ildə istəyirəm ki, hər kəs mehriban olsun. Ortada söz aparıb-gətirənlər olmasın".

***Eldar Qasımov:*** "Bu il mənim üçün, eləcə də hər bir azərbaycanlı üçün düşünürəm ki, Zəfər ili oldu. Bu il Qələbə ilə yadda qaldı. 2020-ci il ilk başlarda bütün dünyanı vahiməyə salmışdı.

Lakin buna baxmayaraq bu il bizim üçün fərqləndi. Ki, bütün tarix boyu bu ili xatırlayacağıq. Çünki 2020-ci il tariximizə qızıl hərflərlə yazıldı. Bu birmənalı şəkildə belədir.

2020-ci ildə koronavirus bütün dünyanı dəyişdi və zənnimcə, artıq əvvəlki kimi heç nə olmayacaq. Onlayn rejim, özünütəcrid və sosial məsafə...Çox şeylər dəyişdi.

Şəxsi həyatımla bağlı onu deyim ki, yeniliklər oldu. Özümü təcrid etdiyim zaman əl qabiliyyətlərimi inkişaf etdirdim. Ki, məndə müxtəlif hobbilər formalaşdı. Bir-birimizdən aralı olmağımıza baxmayaraq bu il şəxsən mənim üçün maraqlı keçdi. Sözün düzü, çox maraqlı keçdi. Bəlkə də, ondan irəli gəlir ki, mən dinamik insanam, bir yerdə dayana bilmirəm, daim nələrisə axtarıram, nələrisə kəşf edirəm.

Bir sözlə, deyim ki, 2020-ci il mənim üçün Zəfər, Qələbə sevinci ilə dolu bir il oldu.".

***Bahar Lətifqızı:*** "Hər kəs kimi mənim də yaddaşımda 2020-ci il mart ayından bu tərəfə pandemiya ilə mübarizə ili kimi qalıb. Bu gün belə biz koronavirusla mübarizədə ölkələr arasında yaxşı mənada seçilirik. 2020-ci illə bağlı ikinci bir məqamı vurğulayım ki, 7-dən 77-yə hər kəsin yaddaşına həkk olunan Vətən mübarizəmiz, Haqq savaşımız, Zəfər Tariximiz oldu. Torpaqlarımız uğrunda igid oğullarımız döyüşdü. Allah Şəhidlərimizə rəhmət eləsin, qazilərimizə Allahdan şəfalar diləyirəm. "Vətən sağ olsun!" deyib igidlərimiz Vətənimizi qorudu.

2020-ci il bir də yadımda onunla qaldı ki, mənimlə birlikdə internatda böyüyən qardaş-bacılarım (bioloji demirəm) var, onlardan birinin övladı olmurdu, 20 ildən sonra 2 əkiz oğlu dünyaya gəldi. Onların da adını mən qoydum.

Birinin adını Türkiyəmizin Prezidenti Ərdoğanın adına uyğun olaraq Ərdoğan, digərini isə Cənab Prezident, Ali Baş Komandanın adına uyğun İlham qoydum. Bu sadəcə sevinc deyil. Bu il bütün azərbaycanlılara düşərli oldu. Ali Baş Komandanın uğurlu siyasəti və igidlərimizin əzmkarlığı nəticəsində doğma Qarabağımızı geri aldıq. Allah Türk xalqlarını qorusun".

**Rövşən Tahir**

# Aparıcı Vüsalə Əlizadə koronavirusa yoluxdu

**"Çox təəssüflər olsun ki, nə qədər qorunsam da, mən də dünyamızı cənginə almış bu sağlıq müharibəsinin iştirakçısı oldum. Haradan, kimdən, necə gəldiyi bəlli deyil. Hər dəfə efirdə də deyirdim, bu virusa yoluxmaq oğurluq, əyrilik deyil, bütün dünya varlı, kasıb, məşhur, hamı yoluxur və yoluxacaq. 2 həftədir, işdə yoxam, qaydalara görə karantində olmalı idim, oldum da. Ölkənin bu vəziyyətində "Ay camaat, mən xəstələnmişəm aaa, xəbəriniz olsun" deyib car çəkməyi ayıb bildim, çünki 3 minə yaxın ailə yas, acı içindədir, kimin nəyinə lazımdır bu məlumatlar? Dərdimiz başqadır. İstəmədim, bu günlərdə yersiz başlıqla xəbər manşetlərində görünüb insanların həssas məqamında qıcıq yaradanlardan olum, özümə yaraşdırmıram!"**



Adalet.az saytı xəbər verir ki, bu sözləri aparıcı Vüsalə Əlizadə "instagram" hesabında yazıb:

"Heç kim üçün qeyri-adi hadisə deyil. Hamımız alışdıq, öyrəşdik və çox sıradan qəbul etdik bu virusu.

Şişirdiləcək heç nə yoxdur. Çox şükürlər olsun ki, özümü yaxşı hiss edirəm və çox pozitiv qarşıladım, belə də bitirdik. Mənə görə narahat olan, yazan, zəng edən, axtaran bütün dəyərli dost, tanış və izləyicilərim, var olun. Allaha əmanət olun".

**Rövşən**

## MİNNƏTDARLIQ

**Hörmətli redaksiya!**

**İndi hər kəsi düşündürən məsələlərdən biri də COVİD-19 virusudu. Yəni bütün dünyada olduğu kimi, Azərbaycanda da ən yüksək səviyyədə tədbirlər görülür ki, insanlarımız bu virusa yoluxmasın. Dövlətimiz hər cür vasitələrlə bizi bu yoluxmalardan qoruyur və bizdən də tələb olunur ki, özümüz özümüzü və ətrafdakıları qoruyaq. Amma təəssüf ki, bu həmişə mümkün olmur.**

**Noyabr ayının 24-ü həyat yoldaşım A.İ.Tahirova COVİD-19-la əlaqədar narahatlıq hiss etdiyindən xəstəxanaya müraciət etdi və ondan test nümunələri götürüldü.**

**Bir gün sonra analizin nəticələri onun hospitala yerləşdirilməsinə səbəb oldu. Beynin mobil tipli hospitalında yerləşdirilən həyat yoldaşımla biz artıq ancaq telefonla əlaqə saxlaya bilirdik. Hər danışığımızda o, buradakı xidmət səviyyəsinin çox ürəkaçan olduğunu bildirir və deyirdi ki, gün ərzində 3-4 dəfə maskaları dəyişirlər, hər 15-20 dəqiqədən bir isə palatada təmizlik işləri görülür. Həkimlər son dərəcə mehriban və qayğıkeşdi, sanki öz doğmalarındı. Hər istəyimizə dərhal diqqətlə yanaşır, lazımi qayğını göstərirlər.**

**Hörmətli redaksiya, həyat yoldaşım müalicəsini başa vurub ailəmizə qayıdandan sonra biz belə qərara gəldik ki, sizin qəzetin vasitəsilə onu və digər xəstələri müalicə edən FHN-nin mobil tipli hospitalının birinci korpusunun həkimləri Xalid İmanov, Xəyalə Sadıqova, tibb bacısı Aytəkin Bayramova və digərlərinə ürəkdən təşəkkürümüzü çatdırasınız. Biz həmişə onları minnətdarlıqla xatırlayacağıq. Xalqımızın sağlamlığı keşiyində duran bütün həkimlərimizi Allah qorusun!**

**Eldar TAHİROV**
**Birinci Qarabağ Müharibəsi veteranı**

Müslümov Qurbanxan Fətəli oğluna məxsus Bakı şəhər, H.Zərdabi pr.3157-3153 məhəlləsində "Lilpar" MTK-nın inşa etdiyi binanın alt qatında qeyri-yaşayış sahəsinin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Məmmədov Saleh Süleyman oğluna Bakı şəhər, Xəzər RHK tərəfindən verilmiş M/V. 015887 (1-ci) Qarabağ müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Nazim Ağamirov, Babək Yusifoğlu, Asif Talıboğlu, Məhəmmədəli Mustafa və Faiq Qismətoğlu **Araz Süleymanova** atası, tanınmış jurnalist
**Lətif Süleymanlının**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yaşar Nəbiyev və Rəhman Hacıyev **Araz Süleymanova** atası, tanınmış jurnalist
**Lətif Süleymanlının**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Tovuz" Xeyriyyə Cəmiyyəti Ağsaqqallar Şurasının və İdarə Heyətinin üzvləri Tovuz RİH-in məsul işçisi, jurnalist-politoloq
**Bəhruzər Qayvalı oğlu Rüstəmovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun qohumlarına, əzizlinə dərin hüznlə başsağlığı verirlər.

Mübariz Əmirov, Kamil Hüseynov, Aydın Tağıyev dostları, Azərbaycan Dillər Universitetinin dossenti **Oktay Abbasova** həyat yoldaşı
**KİFAYƏT XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 25
Çapa imzalanmışdır: 30.12.2020